**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycanda ekoloji turizmin əsas problemləri və həlli yolları”
**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Səmədov Cahangir Əlixan oğlu**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_______________________imza**

**"___" ____________ 2019-ci il**

# "Azərbaycanda ekoloji turizmin əsas problemləri və həlli yolları"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060409 - Biznesin idarə edilməsi**

**İxtisaslaşma: Biznesin təşkili və idarə edilməsi**

**Qrup: 110**

**Magistrant**
**Səmədov Cahangir Əlixan oğlu**

**_____________________ imza**

**Elmi rəhbər**
**i.ü.f.d. Abutalıbov Rasim Rafiq oğlu**

**_______________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d.,b/m Şamxalova Samirə Oqtay qızı**

**_______________________imza**

**Kafedra müdiri**
**i.e.d., professor Kəlbiyev Yaşar Atakişi oğlu**

**_______________________imza**

**BAKI – 2019**

## “MAIN PROBLEMS AND SOLUTIONS OF ECOLOGICAL TOURISM IN AZERBAIJAN”


### Summary

**The relevance of the research: Dissertation theme focuses on the enhancement of ecotourism, one of the most essential types of tourism. The topic reflects the problems facing the development of ecotourism in our country and this issue’s solution.**

**Purpose and Objectives of the Study: Ensuring high level of development of ecological tourism in our country as in Europe and Western countries as well as preventing environmental pollution.**

**Research Methods: In recent years, in some countries, people have been reluctant to resort to traditional tourism and are eager to promote environmental tourism.**

**Research Restrictions: The main goal of research is to determine the skills that are important for our country.**

**Research Information Database: The official statistical data of the State Statistical Committee has been used in order to study various tourism and export statistics, as well as various local and foreign literature and articles on the development of the tourism system.**

**The Result of the Research: In the research, the current state of tourism in Azerbaijan, the share of ecotourism in general tourism, development potential, ecological tourism facilities, state ecotourism policy and its tendencies were thoroughly investigated, and trend analysis and correlation analysis were used.**

**Scientific and practical significance of the results: Considering ecological tourism in the development of the non-oil sector of our country, research and analysis of this topic can be used to explore prospects for Azerbaijan to become one of the centers of international tourism market.**



**Key words: tourism, development, opportunities, economy, ecotourism**

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **ARDSK** | Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi |
| **BİY** | Böyük İpək Yolu |
| **ETT** | Elmi Texnoloji Tərəqqi |
| **Mlyn.** | Milyon |
| **PTEC** | Proletar Turizm və Ekskursiyalar Cəmiyyəti |
| **UNESCO** | Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı |

## MÜNDƏRİCAT

**GİRİŞ......................................................................................................7**

**I FƏSİL. TURİZMİN İNKİŞAF TARİXİ ......................................................9**

1.1. Turizmin mahiyyəti növləri və turizmin formalaşmasına təsir edən amillər ..........................................................................................................9

1.2. Ekoloji turizm və onun növləri..................................................................16

1.3. Turizmin inkişaf tarixi................................................................................18

**II FƏSİL. MÜASİR DÖVRDƏ TURİZM SEKTORUNDA EKOLOJİ TURİZMİN ROLU..............................................................................25**

2.1. Dünya ölkələrində ekoloji turizmin cari vəziyyəti və formalaşma xüsusiyyətləri................................................................................................25

2.2. Azərbaycanda turizmin cari vəziyyəti və ekoloji turizmin rolu .................48

**III FƏSİL. AZƏRBAYCANDA EKOLOJİ TURİZMİN ƏSAS PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI.................................................. 60**

3.1. Azərbaycanda ekoloji turizmin əsas problemləri.........................................60

3.2. Turizm problemlərinin həlli yoları.............................................................63

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........................................................................68**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.............................................................70**

Cədvəllərin siyahısı..........................................................................................72

# GİRİŞ

**Mövzunun aktuallığı:** Ondan ibarətdir ki, turizmin inkişafı Azərbaycanın müstəqillikdən sonraya təsadüf edir, dünya ölkələrində isə bu II Dünya müharibəsindən və texnologiyanın inkişafından sonra geniş vüsət almışdır. Son dövrdə dünyanın əksər yerlərində turistlər ekoloji turizmlə daha çox maraqlanırlar. Dünya ölkələrinin iqtisadiyyatından da bəlli olduğu kimi ekoturizmin inkişaf etməsi çox zəngin qazanclarla müşayət olunur. Bunun nəticəsi olaraq ölkəmizdə də ekoloji turizmin inkişafı ölkə iqtisadiyyatının inkişafı deməkdir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Tədqiqat işində Azərbaycanda turizmin mövcud vəziyyəti, ekoturizmin ümumi turizmdəki payı, inkişaf potensialı, fəaliyyət göstərən ekoloji turizm obyektlərinin, qoruqların müasir tələblərə uyğunluğu, dövlətin ekoturizm siyasəti və onun istiqamətləri hərtərəfli araşdırılmışdir, bu zaman trend analizindən, korrelyasiya təhlilindən istifadə olunmuşdur.

**Tədqiqatının məqsədi və vəzifələri:** Respublikamızda ekoloji turizmin Avropa və Qərb ölkələrində olduğu kimi yüksək inkişafını təmin etmək və təbii sərvətlərin istismar olunmasının, ətraf mühitin çirkləndirilməsinin, bioloji müxtəlifliyin qorunmamasının qarşısını almaqdan ibarətdir.

**Tədqiqatın metodları:** Azərbaycanda ekoloji turizm problemləri və həlli yolları mövzusunda sorğu müşahidə və internet resurslarından istifadə edilərək axtarışlar edilmişdir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti Azərbaycanda turizm fəaliyyəti ilə məşğul olan müəssisələr, predmetini isə turizm sahəsində dövlətin prioritet istiqamətləri və hədəfləri təşkil edir.

**Tədqiqatın informasiya bazası:** Ölkəmizdə turizm sahəsinin və onun növü olan ekoturizmin inkişaf etdirilməsi haqqındakı məlumatlarda bəzi ədəbiyyat və məqalələrdən, o cümlədən ölkəmizin turist ixracı, idxalı və bu kimi digər statistik göstəricilərin öyrənilməsində Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytında yerləşdirilən  məlumatlarından götürülmüşdür.

**Tədqiqatın məhdudiyyəti:** Respublikamızda qeyri – neft sektorlarından sayılan ekoloji turizmi sahəsində ədəbiyyat çatışmamazlığı, tədqiqatın məhdudiyyətinə daxildir.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti:** Ölkəmizin qeyrı-neft sektorunun inkişafında turizmi və ən əsas sahə kimi ekoloji turizmi lazımi bir mövzu götürülməsini düşündükdə bu tədqiqat mövzusunun araşdırılması və təhlili, Azərbaycanın dünyanın ekoturizm sektorunda əhəmiyyətli yerlərlərdən birinə dəyişdirilməsi imkanları, turizm sahəsinin dərindən öyrənilməsi və inkişaf etdirilməsində istifadə olunur.

**Dissertasiya işinin strukturu və həcmi:** Tədqiqat işi "Azərbaycanda ekoloji turizmin əsas probemləri və həlli yolları" mövzusuna həsr edilmişdir. O, giriş hissədən, 3 fəsildən, ilk fəsil 3, son iki fəsil 2 bölmədən, nəticə, təklif və ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumi həcmi 72 səhifədən ibarətdir.

# I FƏSİL. TURİZMİN İNKİŞAF TARİXİ

## 1.1. Turizmin mahiyyəti, növləri və turizmin formalaşmasına təsir edən amillər

Turizm insanların müvəqqəti olaraq hər hansı bir bölgəyə, yerə istirahət etmək, müalicə almaq, görmək, tarix və mədəniyyət abidələrindən bəhrələnmə kimi məqsədləri üçün daimi yaşayış yerlərindən getmələridir. Turizm fəal istirahətin ən geniş yayılmış və ən kütləvi növlərindən biridir.

Son dövrdə, turizm turistləri qəbul edən ölkələrin iqtisadiyyatlarının inkişafı üçün ən lazımi fəaliyyət növüdür. Turizmin inkişafını turizm müəssisələrinin və turistlərin tələbatlarının ödənilməsindən asılıdır.

Dünyanın hər yerində turizm xidmətinin inkişafına ölkələr böyük maraq göstərirlər. Ümumiyyətlə ölkə iqtisadiyyatının sosial-iqtisadi cəhətdən inkişafında turizm xidməti böyük pay sahibidir. Təsadüfi deyildir ki, artıq dünya iqtisadiyyatında turizm sahəsi neft istehsalı və avtomobil istehsalı sənayesi ilə yanaşı ən yüksək gəlir gətirən sahəyə çevrilməyə başlamışdır.

Turizmə ehtiyacın zamanla çoxalması xüsusilə bəzi ölkələrin iqtisadiyyatlarında əvvəlki ilə nisbətən böyük bir ağırlıq qazanması, turist sözünün tərifinə aydınlıq gətirilməsini zəruri etmişdir. Turizmin hərəkətliyinin həcmini müəyyən etmək üçün turist tərifinin açıq bir şəkildə edilməsi lazımdır. Oğılvy turist sözünə davamlı qaldığı məkandan ən çox 12 ay müddət ilə ayrılan və geçici olaraq getdiyi yerlərdə qazandığı pulları xərcləyən kimsə şəklində tərif verilmişdir. Norvalın 1936-cı ildə verdiyi tərifə görə isə turist davamlı olaraq eyni yerdə məskunlaşmaq və qazanc əldə etməkdən başqa məqsəd ilə xarici, tanımadığı bir yerə gedən və az müddətlik olaraq bir zaman yaşayacağı yerdə qeyri bir ölkədə qazandığı pulları xərcləyən kimsədir. Millətlər Təşkilatı Statistika Mütəxəssislər Komitəsi tərəfindən 1937-ci ildə yer dəyişdirməyə qatılanlardan turist olanların bölüşdürülməsi üçün verilən məna və tərif budur. Bir ölkəyə ən az 1 günlük zaman ərəfəsində yaşamaq üçün bəzi səbəblərlə buraya gələn insanlar qəbul edilirlər:

- zövq, ailəvi səbəblər, səhiyyə məqsədiylə və s. səfər edənlər,

- elmi, inzibati, dini, idman səbəblərlə və ya bu növ yığıncaqlara qatılmaq məqsədi ilə səfəre dənlər,
- ticarət səbəblər ilə səfər edənlər,

Turist kimi ölkədə qəbul edilməyən:

- tanımadığı ölkədə sosial ictimai düşüncəli vəzifələndirilən kəslər (məsələn; diplomatlar),
- ölkədə yerləşmək, davamlı qalmaq üçün gələn şəxslər,
- məktəblərdə və ya yerləşmə qurumlarında universitet şagirdləri və ya digər gənclər,
- bir sərhəd bölgəsində istiqamət edənlər,
- bir ölkədən durmadan turist kimi keçib gedənlər və səyahətləri bir günü keçsə belə turist olaraq qəbul edilməzlər.

Turizmin növləri haqqında danışarkən bir-birindən fərqli müxtəlif sinifləndirmələrin olduğu görülməkdədir. Bunun səbəbi, ölkələr arasında turizm sektorunun göstərdiyi inkişaf qarşısında məcburən ortaya çıxan bir sinifləndirilmədir. Yəni inkişaf etmiş ölkələrin turizm sahəsi inkişafda olan ölkələrin turizm sahəsi ilə nisbətdə daha çox inkişaf etmişdir. Bu səbəbdən də inkişaf etmiş bir ölkənin turizmi inkişafda olan ölkənin turizminə nisbətən daha çox alt kataqoriyalara bölünmüşdür. (Kozak N., Kozak M.A., Kozak M., 2014, səh.11)

Turizmin növ, kataqoriya, forma və tiplərinə görə təsnifatı daha geniş yayılmışdır. Turizmin növləri müxtəlif anlamlarda turizmin təsnifatının nəticəsidir. Turizmin tipləri gələn turistlərin milli mənsubiyyəti ilə müəyyən olunur.

Müxtəlif turizm tiplərinin uyğunlaşması turizmin kateqoriyalarını formalaşdırır. Turizmin formaları təşkil olunma prinsiblərinə görə müəyyən olunur.

**Qatılan turist sayına görə növləri:** Fərdi Turizm bu sinifləndirmənin çıxış nöqtəsi turizmə fərdi olaraq qatılmasından qaynaqlanmaqdadır. İnsanlar yeni yerlər görmə, macəra axtarma və ya buna oxşar səbəblərdən dolayı turizmə fərdi olaraq qatılmaqdadır.

Qrup Turizmi insanların turizmə geniş ölçüdə, böyük kütlələr halında qatıldıqları turizm növünə qrup turizmi adı verilməkdədir. Burada müxtəlif toplumsal qrupların turizmə birlikdə qatilmalarınından bəhs edir.

**Ziyarət edilən yerə görə turizmin növləri:** Daxili turizm bir ölkənin vətəndaşlarının elə həmin ölkə daxilində turizm fəaliyyətlərinə qatılmalarına daxili turizm deyilir. Turizmin bu növü gəlirin ölkənin bölgələri arasında bərabər bölünməsində əsas yeri tutur. İqtisadi cəhətdən bu vəzifə daxili turizmə düşür bundan əlavə turizm qatılan insanların öz ölkələrinin təbii və mədəni dəyərlərini öyrənməyə və sevməyə kömək edir.

Xarici turizm isə xarici turistlərin bir ölkəni səyahətləri və yerli turistlərin xarici bir ölkəyə səyahətlərini ifadə edir. Xarici turizm daxili turizmdən fərqli olaraq passport, valyuta, viza kimi əməliyyatları tələb edir.

**Məqsədinə görə turizm növləri:** Ekskursiya turizmi, bu turizm növü dərk etmək məqsədi ilə baş tutan bir səyahətdir. Son dövrdə turizmin ekskursiya növü müasir turizm firma və təşkilatlarının ən çox məşğul olduğu, turistlərin də ən çox istifadə etdiyi növlərdən olan və bəzi bölgələr və yerlərin tarixi-mədəniyyət kimi diqqətəlayiq sərvətləri ilə insanların tanış olma və kəşf etmə arzusudur. Ekskursiya turizminin məqsədinə görə turizmin başqa növlərindən fərqləndirən xüsusiyyətlərindən biri onun çox uzaq mənzillərə təşkil olunması və təşkil olunan turizm səyahəti müddətində daha çox ölkə, şəhər, yerlərə getmək və orada qalmaq kimi bir şansın turistlərə verilməsidir.

Rekreasiya turizmi turizmin müalicə almaq və istirahət etmək məqsədi ilə həyata keçirilən bir növüdür. Bu növ həmən-həmən dünyanın bütün ölkələrində geniş yayılmışdır. İtaliya, İspaniya, Norveç, Bolqarıstan, Çexiya, Ruminiya kimi ölkələrə gedən xarici turistlərin səfərləri məhz elə bu məqsədi həyata keçirir. Bu turizm növündən istifadə edən turistlərin xarakterik xüsusiyyətləri olacağı şəhərlərin sayının az, lakin bir şəhərdə yaşama müddətinin isə çox olmasıdır.

Elmi və ya konqress turizmin bu növünün məqsədi fərqli və müxtəlif yığıncaqlarda və konqresslərdə iştirak etmək istəyən turist səyahətlərini özündə

birləşdirməkdir. Elmi və ya konqress turizmi müasir beynəlxalq turizmdə çox böyük paya sahibdir. Xarici turistlərin ümumi sayının 6-7 faizinin elə beynəlxalq tədbirlərdə iştirak edən turistlər təşkil edir. Turizmin bu növündən qazanılan gəlir daha yüksəkdir. Elə bu səbəbdən də dünyanın əksər ölkələri özlərində beynəlxalq tədbir və iclasların keçirilməsi üçün can atırlar.

Macəra turizmi turistlər üçün fiziki cəhətdən çətin, əksər vaxt isə həyat üçün çox təhlükəlidir. Belə turizm turlarının təşkili zamanı əsas məqsəd ilk növbədə turistlərin təhlükəsizliyinin təmin olunmasıdır. Buna görə də bu turlar çox öncədən planlaşdırılmamış yəni insan ayağının dəymədiyi və ya az dəydiyi hündür dağlar, ekvatorial meşələr, səhralar kimi bölgələrə gedərək həmin bölgələri, yerləri kəşf etməy üçün edilir.

Ekoturizm əksər ölkələrdə turizmin digər növlərindən daha əhəmiyyətli növ kimi fərqləndirilir. Çünki turistlərin kiçik qruplar şəklində çıxdıqları bu səyahətdə bələdçilər təbiət və ətraf mühitin qorunmasının təbii sərvətlərin mühafizəsinin vacibliyini gələn turistlərə izah etməkdədirlər.

Dənizlərdə, göllərdə, çaylarda, kanallarda gəmi, yaxta və ya qayıq kimi vasitələrlə edilən bir səyahət növüdür. Su turizmi digər turizm növlərindən coğrafi və zaman baxımından rəngarəngliyi ilə çox fərqlənir. Turizmin bu növü yerli əhali üçün nəzərdə tutulmuşdur və əsasən yaxınlıqdakı su hövzələrinə bir neçə saatlıq dəniz və okeanlara isə bir neçə həftəlik səyahətlər olmaqla təşkil olunur.

Dağ turizmi turistlərin dağların təmiz və təravətli ab-havasından fayda götürmək üçün dağlara istiqamətli olaraq təşkil etdikləri turizm növüdür. Dağ turizmi gəzmək və dağa dırmanma şəklində reallaşdırılmaqdadır. Şəhərlər getdikcə böyüməkdədir və şəhərlərin böyüməsi, onun çirklənməsini daha da sürətləndirir. Bununlada şəhərlərin yaşanmaz hala gəlməsi dağ turizmi kimi insan ilə təbiəti yaxınlaşdıran turizm növlərinin genişlənməsinə gətirib çıxarmaqdadır.

Dini turizm müqəddəs yerlərə istiqamətli turizm fəaliyyətləri dini turizm olaraq təyin olunmaqdadır. Dəyişən turist istəklərinə bağlı olaraq əksər ölkələrdə inkişaf göstərən din turizmi çərçivəsində mövcud mədəniyyət dəyərlərinin

qorunması, turizmə qazandırılması və tanıdılması qarşıya məqsəd olaraq qoyulmuşdur. (Kozak N., Kozak M.A., Kozak M., 2014, səh.23)

Turizmə təsir edən amillər xarici-ekzogen və daxili-endogen prosses olmaq şərti ilə iki qrupa bölünürlər. Xarici amillər aşağıdakılardır:

- Təbii-coğrafi
- Mədəni-tarixi
- İqtisadi
- Sosial
- Demoktarik
- Siyasi
- Texnoloji
- Ekoloji

Ümumiyyətlə turizmin inkişafına təsir edən amillərdən biri və ən əsası da təbii-coğrafi amillərdir. Azərbaycanda turizmin inkişafina şərait yaradan ən mühüm və ən çox ehtiyac duyulan yönlərindən ən əsası, respublikamızın cənub zonalarında çox lazımi coğrafi mövqedə olmasıdır. Böyük Qafqaz dağlarının təxminən cənub-şərq hissəsində yerləşən ölkəmiz, Rusiya, Gürcüstan, ermənistan, İran, Türkiyə ölkələri ilə, dəniz vasitəsi ilə Qazaxısatan və Türkmənistan dövlətləri ilə həmsərhəddir. Azərbaycan bu saydığımız ölkələrlə hava, dəniz, şosse və dəmir yolları ilə münasibətlər qurulur. Burdan da başa düşmək olar ki, turizmin inkişaf etməsi və sürətlənməsi yəni, turistlərin ölkəyə gəlməsi və ya öz vətəndaşlarımızın xarici ölkələrə səfəri üçün  müəyyən marşurut xətləri olması lazımdır. Bunun üçündə, Azərbaycanın paytaxtdı Bakı şəhərində müasir ən son avadanlıq və aparatlarla quraşdırılmış limanlar, çox keyfiyyətli şosse yoları, müasir və rahat hava yolları və dəmir xəttləri yolları mövcuddur. Gərək, fənlərarası bir sturuktura sahib olması gərəksə də ictimai, iqtisadi, təbii və ya siyasi səbəblərdən ötəri turizm olduqca həssas bir xüsusiyyətə malikdir. İqtisadi amillərə əsasən, turistlərin təbii ehtiyaclarının qarşılanması və turizmdən öz məqsədlərinə görə istifadə etməsi daxildir. Ölkələrin iqtisadi tərəfdən inkişaf etməsi, vətəndaşların yaşayış

səviyyələrinin yüksəlməsi, milli gəlirin artması aid edilir. İlk dövrdə ictimai ünsürlər daha təsirli ikən irəliləyən yüz illərdə iqtisadi və siyasi səbəblər daha ön plana cıxmağa başlamışdır. İndiki vaxtda isə bunlara əlavə olaraq iqtisadi və texnoloji ünsürlər turizm sektorunun ərz və tələb elementlərini daha sıx bir şəkildə təsir etməyə başladığı görülməkdədir. Turizmin inkişafına təsir edən ictimai və iqtisadi ünsürlər:

- Boş zamanın artması
- Texnoloji inkişaf
- Şəhərləşmə
- Əhali artımı
- İnsan ömrünün uzanması
- İctimai təhlükəsizlik
- Səyahət azadlığı kimi ictimai və ya iqtisadi ünsürlər turizmin inkişafına dərindən təsir edir. (Əlirzayev Ə.Q. 2010. səh.87)

Sosial amillər isə bir növ hər bir dövlətin öz vətəndaşları üçün verdiyi məzuniyyət vaxtları, ildə bir dəfə verilən məzuniyyətlərin təkrarən verilməsi və s. aid edilə bilər. Potensial turistlər məhz bu kimi turistlərə deyilir. Məlum olduğu kimi texnologiyanın inkişafı, yeni avadanlıqların gətirilməsi ilə işçilərin üzərinə düşən öz işlərini tez yekunlaşdırmaları ilə nəticələnir ki, onlarında istirahət etmək üçün asudə vaxtları daha çox qalır və bu kimi faktları dünyanın inkişaf etmiş ölkələrində görmək mümkündür. Sosial amillərə insanların təhsil səviyyəsinin, mədəniyyətlərinin, həm ölkə daxilində həm də xaricdə ölkəmizi təmin etmə bacarıqlarının, dünyagörüşlərinin yüksəlməsi aid edilir. Aparılan araşdırmalar nəticəsində insanların təhsil səviyyələrinin yüksək olması onların turizmə daha çox maraqlı olduqlarını göstərməkdədir. (Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H., 2002.)

Siyasi amillərə müasir dövrdə dünyada və digər ölkələrdəki siyasi vəziyyət, sərhədlərin açılması, turizmə dəstək olunması üçün qonşulararası əlaqələrin

formalaşması, gömrük xərclərinin azaldılması və valyuta siyasəti aid edilir. Təbii ki dünyanın müxtəlif ölkələrinə turist kimi səyahət etmək üçün siyasi stabillik önəmli faktordur. Çünki siyasi sakitlik olan ölkələrdə nəinki həmin ölkəyə olan turist axınına eyni zamanda ölkə daxili turizmin inkişafına müsbət mənada təsir edir. Müharibə vəziyyəti ilə qarşı-qarşıya olan ölkələrin əksəriyyətində iqtisadi böhranın yaşanması turizmə mənfi təsir göstərən ən əsas amillərdən biridir.

Texnoloji amillər son dövrdə texnologiyanın inkişafı sayəsində texniki və texnoloji avandanlıqlar da yüksək inkişaf etmişdir və bu da öz növbəsində turizmə təsir göstərən ilkin amillərdən oldu. Xüsusən insanlar arasında əlaqələrin genişlənməsi müxtəlif xidmət sahələrinin gələn insanlara təklif edilməsi dəniz, quru və hava yollarının inkişafı nəticəsində daha sürətli və daha çoxşaxəli daşınmalara yol açır. Komfortlu şəkildə ,əsasən də aviasiya daşımaları vasitəsilə turistlərin daha uzaq məsfələrə tezlikdə çatdırılması insanların turizmə olan maraqlarını artırır. Araşdırma aparan şəxslərin fikrincə gələcəkdə elmi-texniki inkişafın əldə olunması turizmə iki formada təsir göstərə biləcək:

- Müxtəlif nəqliyyat növlərinin sayının və keyfiyyətinin artması;
- Turizm sənayesində kompüter texnologiyalarının inkişafı.

Müasir dövrdə turizm məhsullarının çeşidlənməsində və yayılmasında kompüter texnologiyaları aparıcı sahə kimi çıxış edir.

Aşağı və orta sahibkarlığın inkişaf etməsi əksər turizm təşkilatlarını riqqətə gətirir. Bəzi mütəxəssislərə görə turizm xidmətinin rəqabət davamlılığına təsir göstərən yeddi amil vardır:

1. Keyfiyyət
2. Etibarlılıq
3. Təhlükəsizlik
4. Qiymətin inandırıcı olması
5. İstehlakçıların seqmentləşməsi
6. Qiymətlərin mövsümü differensasiyası
7. Endirimlərin differensasiya sistemi

Bu amillərin nəzərə alınması, turizm müəssisəsinə öz fəaliyyətini planlaşdırarkən onun məhsuluna, turistlərin marağının olmasına və bu məhsulun rəqabətə davamlı olmasına imkan yaradır.

## 1.2. Ekoloji turizm və onun növləri

Ekoloji turizm insanların və qloballaşmanın Yer səthinə təbiətə təsir etdiyi mənfi dəyişikliklərin yəni ekosistemin tarazlığının pozulması, iqlimin dəyişməsi, torpaq və qruntların deradasiyası, biomüxtəlifliyin məhvi, hava, torpaq, suyun çirkli olmasının və çirklənmə faizlərinin artması, turist fəaliyyələrinin təsiri ilə təbiətin yoxsullaşdırılması, ölkə regionlarında insanların bərabər olmayan məskunlaşmasının dövlət tərəfindən yoxlanılmaması ilə sosial-iqtisadi təkamülün qeyri-bərabər olması, əhalinin sağlamlığı, ərzaq təhlükəsizliyi, enerji resurslarının və təbii sərvətlətin azalması, mədəni-tarixi turizm ehtiyatlarına negativ təsirin olmaması kimi dünyanın ən böyük problemlərinin qarşısını alan bir sözlə təbiətə və ətraf mühitə ziyan vurmayan turizmdir. Azərbaycanda da ekoloji turizm üçün lazım olan potensial mövcuddur.

Almaniyanın iqtisadiyyatının yüksəlməsi, maliyyə bərabərliyi ilə bəzi nazirliklər düşünürlər, ekoloji turizm bu sahənin elə bir hissəsidir ki, bu təbiətə pis təsirlərin ən aza düşürülməsi, qorunan ətraf mühit və təbiət ərazilərinin maliyyələşdirilməsinə köməklik edilməsi, yerli insanlara qazanc əldə edilməsi kimi məqsədlərə görə fikirləşdirilmiş düşüncələrdən ibarətdir.

Ekoloji turizmin əsasları aşağıda yazılanlardan ibarətdir:

- Rekreasiya ətraf mühitin bioloji olaraq mühafizə edilməsidir;
- Ekoloji turizm sektoruna aid olan bölgələrin iqtisadi-sosial səviyyəsinin inkişaf etdirilməsi;
- Turizm bir növü olan ekoloji turizm fəaliyyətləri turistlərin ekoloji düşüncələrinin yüksəldilməsi;

Hazırda ekoturizm və ekoturlar dörd növə ayrılır:

- Təbii tarixi tur

- Elmi turizm
- Macəra turizm
- Xüsusi qoyulan təbiət ərazilərinə səyahət

**Təbii tarixi tur:** Bu turların məqsədi ətraf mühiti və yerli mədəniyyəti görmək və dərk etməkdən ibarətdir. Təbii tarixi turla maraqlanan turistlər ən çox qoruq və milli parklara səyahət edirlər.

**Elmi turizm:** Turistlərin əksəriyyəti ekoturizmin bu növü ilə maraqlanırlar. Çünki təbiətin müxtəlif növlü tədqiqində iştirak etmək, sahə müşahidələri aparmaq bu növə aiddir. Elmi turizmə həmçinin universitet və instutların təbiət elmləri fakultələrində oxuyan şagirdlərin çöl təcrübələri qeyd edilir.

**Macəra turizmi:** Turistlərin alpinizm, buza çıxma, qayaya çıxma, dağ və piyada turu, su, kanon, dağa dırmanma, at turizmi, dayvinq və ən əsası xizək kimi turizm fəaliyyətlərindən istifadə edə biləcəyi turizm növüdür. Bu fəaliyyətlərdən istifadə edən turistlərin məqsədi fiziki formalarını yaxşılaşdırmaq təzə nəfəs və düşüncələrinin qeyd olunması, istirahət etmək və aktiv yönlü hərəkətlərlə bağlıdır. Bu turizm növlərinin əksəriyyəti yaxın keçmişdə yaranmışdır və ekstrimal hesab olunur ki, böyük risklə elaqədardır. Lakin bununla belə turistlərin ən çox ehtiyac duyduğu ən çox məşğul olunan tez inkişaf edən gəlirli amma çox daha zəngin ekoloji turizm hissəsidir. Bu turizmi yeriyərək, velosiped sürməklə, qayıqla, hərəkət ilə və s. kimi aktik yollarla yerlərini dəyişdiyi bu turizmlə və əyləncə turizm ilə yəni alpinizmlə eyniləşdirirlər. Əslində bu çoxda düzgün deyildir.

**Xüsusi qorunan ətraf mühitə səyahət:** Xüsusi qorunan təbiət yerləri deyildikdə nadir və ekzotik təbii obyektlər, hadisələr, yerlər nəzərdə tutulur ki, belə yerlər çox cazibədar yerlər olaraq başa düşülür və turistlərin gəlməsinə səbəb olur. Məsələn, Latın Amerikasına səyahət edən insanların demək olar ki, yarısı rezervatlara səyahət etmək məqsədinə malikdir. Ekoloji turizmin xüsusi qorunan ətraf mühitə səyahət növü daha çox Okeaniyada sürətlə inkişaf etmişdir. Odur ki, onu bəzi mənbələrdə ekoturizmin inkişafının Avstraliya modeli adı ilə adlandırırlar.(Əsgərov Ə.T., Bilalov B.Ə., Gülalıyev Ç.G., 2011, səh.36)

### 1.3. Turizmin inkişaf tarixi

Azərbaycan hələ qədim zamanlardan səyyahların, dərvişlərin, zəvvarların çox gəzib-çox bilmək istəyən insanların diqqətini cəlb etmişdir. Hər bir kitabın, daşın, qayanın, hadisənin ümumilikdə hər bir elmin tarixi olduğu kimi turizmində tarixi mövcuddur. Lakin bu tarixin hansı hissəsindən başladığı bizlərə dəqiq məlum deyildir. Uzun illərdən bəri insanların yaşamaq uğrunda çox çətinlikləri ölüm-dirim mübarizəsi verdiyi amma sonunda öz ilkin mədəniyyətlərini yaratmağa nail olmuşlardır. Azərbaycan əsrarəngiz təbiətlə yanaşı zəngin tarixə və qədim mədəniyyətə də malikdir. Ölkəmizin ərazisində 5 mindən artıq tarixi abidələr qorunub saxlanmaqdadır.

Tarix boyu insanları əksər vaxtı məcburiyyətdən səyahət, yerdəyişmə etdikləri bizlərə məlumdur. Buna səbəb insanlar və ya qəbilələr arasında olan münaqişələri müharibələri məskunlaşdığı məkan və ya yerlərin yaşayış üçün yararsız hala gəlməsini misal olaraq göstərmək olar. Bu baxımdan da olduğu kimi, uzun illər bundan qabaqkı vəziyyətlə indiki dövrdəki vəziyyət eynidir. Çünki əvvəllərdə insanlar, qəbilələr yaşamaq üçün coğrafi relyef baxımından onlara uyğun ərazilər, yerlər axtarıb tapmağa və yaşamağa çalışırdılarsa elə indidə elə edirlər. Ona görə də turizm müxtəlif insan və insan sivilizasiyalarının yaranmasında və inkişafında çox əhamiyyətli yerə malikdir. Uzaq keçmişdə dünyanın müxtəlif ərazilərində misal, Hindistanda, Yaxın Şərqdə, Çində, Yunanıstanda insan sivilizasiyaları yaranmışdır. Elə o vaxtdan, insanlar ölkələr arasında səyahətlər etmişlər və bu səyahətlər nəticəsində iqtisadi-sosial əlaqələr yaradılmış və ideya mübadilələri ilə dünya indiki formasını almısdır. Bundan da o nəticəyə gəlmək olar ki, turizmin tarixi çox keçmişə dayanmaqdadır və dünyanın vəziyyəti o səyahətlərdən daha çox asılı olmuşdur.  Bəhs olunan qədim zamanlardakı səyahətlərin əsas səbəbləri, təbiət mövzusunda bilikləri daha da artırmaq və dini təbliğat arzusundan doğub formalaşmışdır. Yeni torpaqlar axtarmaq, təbii sərvətlərin yerlərini öyrənmək və ticarət əlaqələri yaratmaq ilk zamanlardakı səyahət məqsədləri və səbəbləri olmuşdur. İnsanların səyahətlərin

artdıqca onların təbiət haqqında düüncələri dəyişir, bilik və bacarıqları çoxalırdı və insanların özlərinində də dəyişikləklər olmağa başlamışdır.

Turizm və onun növlərinin ilkin olaraq yaranması və yaranma tarixini beş dövrə ayırmaq olar:

1-ci dövr - Qədim dünya səyahətləri;

2-ci dövr - Orta əsr səyahətləri;

3-cü dövr - Qızıl dövrün coğrafi ixtiraları;

4-cü dövr - Kütləvi turizmin yaranma tarixi;

5-ci dövr - Beynəlxalq turizmin qloballaşması və beynəlmiləlləşməsi. .

İnsanlar və insan sivilizasiyaları yaranadan bəri onlar ətraf mühiti kəşf etmək yeni yerlər axtarmaq yiyəcək və içəcək ehtiyaclarını qarşılamaq üçün məcburiyyətdən axtarışa çıxırdılar. Bu səyahət və səfərlərdə onlar yeni münbit torpaqlar, yaşayış üçün uyğun ərazilər tapırdılar. Sonradan isə qəbilələrin əksəriyyəti dəniz və ya çayların ətrafında məskunlaşmağı üstün saydılar. Çünki, bu zaman onlar istədikləri vaxt dəniz vasitəsi ilə yeni yerləri kəşf etmək üçün etdikləri səfərlərə daha rahat çıxa biləcəklər və bunun üçündə onlar taxta və ya qamışdan balaca qayıqlar hazırlamağa başladılar. Beləliklə də səyahət yolunda yeni bir cığır acılmış oldu. Bu da turizmin inkaşafına gətirib çıxaran bir amildir. İnsanlar dənizlərdə, çaylarda və ya okeanlarda olan səyahətləri zamanı günəş və ulduzlardan istifadə edərək öz axtardıqları yerə gəlib çıxa bilirdilər, amma bu çox təhlükəli idi. Çünki hava buludlu olduğu halda insanların öz məskənlərini tapmaq çox çətin bir vəziyyət idi ki, sonuda əksər vaxt faciə ilə bitirdi.

**Qədim Misirlilərin səyahətləri:** Ən qədim mədəniyyətlərin Uzaq və Yaxın Şərqdə, Finikiyada, Çində, Tanazaniyada və Misirdə yarandığı haqqında artıq hər kəsin məlumatı vardır. Cəmiyyət və insanlar yarandıqdan sonra, məlum olduğu kimi ölkələr arası bir çox səfərlər olmuşdur və bu da öz növbəsində ticarətin canlanmasına və inkişafına gətirib çıxarırdı ki, bu zamanda yollar salınır, karvansaralar yaradılır, kanallar tikilir, limanlar qurulur bununlada yolların, tacirlərin və onların əmlakının təhlükəsizliyi qorunurdu. Misir adını, turizm

tarixinə qızıl hərflərlə yazmışdır. Dünyanın yeddi möcüzəsindən biri olan piramidaların hazırlanması hələ də bütün dünya üçün sirr olaraq qalmaqdadır. (Yeganlı S.T., Hacıyev E.M., 2006, səh. 15)

**Şumer mədəniyyətinin ilk olaraq yaranması və qədim dünya səyahətləri:** Türk dilli xalqlar və mədəniyyətlər kimi tanınan şumer xalqı eramızdan evvəl yeddi altıncı minilliklərdə Asiyanın mərkəzindən və Altay-Sayan dağlarının ətəklərindən yeni torpaqlara səfər məqsədilə Mesopotamiyaya gələrək ilk insan sivilizasiyalarından ən maraqlısını, təəccüblüsünü və təkrarolunmazını yaratmışlar. Dövlətin ən inkişaf etmiş və ən böyük şəhəri Babil şəhəri idi. Bu şəhərdə yaradılan Babil Bağları da Misir piramidaları kimi, dünyanın yeddi möcüzəsindən biridir. O, zamanın ən böyük dövlətlətirindən biri olan Şumer başqa ölkələr ilə hər zaman ticarət əlaqələri saxlayırdılar. Şumer dövləti coğrafi mövqe cəhətdən çox əhəmiyyətli bir yerdə yerləşirdi. Çünki dövlət bütün ticarət yollarının üstündə yerləşirdi ki, bu dövlətin turizm baxımından necə əhəmiyyətli və vacib olduğunu da anlamaq olur. (Yeganlı S.T., Hacıyev E.M., 2006, səh.17)

Ölkənin əhəmiyyəti onun bəzi məsuliyyətlərə cavab verməyini tələb edirdi. Buna görə də ilk ədəb qaydaları məhz bu ölkədə yaradılmışdır.

Bu ölkələrdən başqa, Çində sivilizasiyanın yaranmasından sonra ticarətlərdəki əhəmiyyəti, qüdrətli Finikiya dövlətinin dənizlərdə, quruda və okeanlarda olan ticarət əlaqələri, Roma imperiyasını, Ərəb xilafətini, Qafqaz və Türk xalqlarını və şimalın ticarətinə baxan Normanları misal göstərmək olar. Bu dövlətlər kimi turizm tarixində əhəmiyyətli alim və professorlar vardır ki, bunlardan Afanasiy Nikitinin, Marka Polonun Avropa səyyahları olan Xristofer Kolumbun, Vasko da Qamanın, Fernan Magellanın, Ceyms Kukun adını qeyd etmek olar. (Yeganlı S.T., Hacıyev E.M., 2006, səh. 20)

Azərbaycanında turizm tarixində özünə məxsus yeri vardır. Çünki bizim torpaqlarımız və cəmiyyətimiz Beynəlxalq İpək Yolunun tam ortasında yerləşir ki, bu da ölkəmizin necə əhəmiyyətli olduğunu bildirir. Əgər qədim səyahətləri

xatırlasaq onda görərik ki, Azərbaycana nə qədər səfərlər olmuşdur. Bunları nəzərə alaraq Azərbaycanın turizmin inkişaf mərhələlərinə nəzər salaq:

**Qədim və orta əsrlərin ticarət karvanları mərhələsi:** Azərbaycana yönəlik ilk səfərlərin məqsədi dini təbliğat, siyasi dərk etmə olmuşdur. Uzaq keçmişdə Azərbaycan ərazisindən keçən karvanları ilk səyahət kimi hesab etmək olar. Azərbaycanın hələ qədim dövrlərdə Beynəlxalq İpək Yolunun üzərində olduğunu hamımız bilirik və Beynəlxalq İpək Yolunun ən fəal lazımlı hissəsi məhz indiki Azərbaycan (Qafqaz Albaniyası) ərazisinə düşürdü.Azərbaycan ərazisi Avropa ilə Şərqi və Mərkəzi Asiya ölkələri üçün dayanacaq rolunu oynayırdı. Bu da ölkəmizin necə əhəmiyyətli olduğunu göstərir. Yunan alimi Strabonun yazdığına görə, çin mallarının xeyli hissəsi Orta və mərkəzi qitə hissəsində gətirilərək sularla indiki Xəzər gölünə, daha sonra Xəzər gölu ilə indiki ölkə ərazisinə və bəzi gursulu çaylar vasitəsi ilə gürcüstana, oradan isə Qara dənizin sahillərində yerləşən ölkə və şəhərlərə göndərilirdi. Böyük İpək Yolu üstündə yerləşən Azərbaycan şəhərləri və digər qədim şəhərlər ölkəmizin şimal hissəsində və cənubunda əhəmiyyətli beynəlxalq ticarət mərkəzi kimi formalaşmışdır. On və onaltıncı əsrlərdə ölkə ərazisində insanların səfər etdiklərində qala biləcəkləri yerlərin yəni, rabatlarm geniş şəbəkəsi yaradılmışdı.

**XVI-XIX əsrin sonlarına qədər olan mərhələ:** Şimal qonşumuz Rusiyadan cənub sərhədimiz olan İrana və Hindistana qədər gedən su və torpaq yollarının qırağında məskunlaşan paytaxtımız Bakının on beşinci əsrin sonlarında Qərblə yarımkürəsi ilə Şərq yarımkürəsi arasında ticari əlaqələrində çox böyük əhəmiyyəti vardı. XX əsrin ortalarında Bakı ərazisində ictimai və inzibati müəssisələri və təşkilatlarının sayı getdikcə artırdı. Həmin vaxtda Bakıda bəzi müəssisələr açılmışdı ki, bunlara kredit təşkilatını, müxtəlif banları gecələmə yerlərini, telefon-rabitə stansiyalarını və s. misal göstərmək olar. Həmçinin Bakıda neftin çıxması bütün dünyaya səs salmışdıki bunun da nəticəsində dünyanın bir çox ölkələri Azərbaycana səfər etdilər. Bu isə xidmət sahəsinin yaradılmasına təkan verdi.

**XIX əsrin sonlarından XX əsrin əvvəllərinə qədər olan mərhələ:** İyirminci əsrin əvvəllərində iyirminci əsrin sonlarında Bakı şəhərində olan karvansarayların demək olarki hamsında yenidən qurma əməliyyatları həyata keçirilirdi və yenidən qurmadan sonra karvansaraylar mehmanxana olaraq fəaliyyətini davam etdirdi. XX əsrin sonu və XXI əsrin ortalarında  xarici qonaqları qəbul edə bilən mehmanxanalara İmperial, Metropol, Qrand Otel, Astoriya, Lion,  İtaliya, Madrid Marsel və s. misal göstərmək olar. Bolşaya Moskva, Marsel, Ermitaj və Madrid şəhərin ən gözəl və yüksək xidmət göstərən mehmanxanalarından idilər.Şəhərin əhalisi daha çox olan meydanlarından biri olan Quba meydanında tacirlər, ziyalılar, mədəniyyət xadimləri, əkinçilər kimi Azərbaycanın müxtəlif bölgələrindən gələn insanlara rast gəlmək mümkün idi. Azərbaycanın Rusiya imperiyasının daxilinə girdikdən sonra normal olaraq da Azərbaycanın turistlərin ekskursiya məsələsinin inkişafı İran imperiyasından asılı olmuşdur. 1911-ci vaxtlarda Bakı turizm mərkəzinin bir filialının da Azərbaycanda açılması ilə Azərbaycanda mütəşəkkil turizmin tarixinin ilk addımları atılmışdır. Mərkəz hissəsi həm çox uzaq, bəzən də çox daha yanaşı turist səyahətlərinin formalaşdırılması ilə səfərbər olurdu. Min doqqoz yüz iyirminci ildən başlayaraq  Turizm Cəmiyyəti əvvəlki adı ilə Sovet respublikasında turizm hərəkatının əsas mərkəzinə çevrilməyə başlamışdı. Onun Bakı kimi müxtəlif şəhərlərdə də şöbələri açılmaga cəhd edilmişdir.  Turizm Cəmiyyətinin  vəzifələrinə ekskursiyaya hərtərəfli mövcud sosial məqsədlərini götürmək, zəhmətkeşlər arasında öz fəaliyyət turizminin inkişafı diyarşünaslıq elementlərinin turizmə tədbiq olunması və sayir kimi oxşatmaq olar. 1921-ci ildə paytaxtda ilk turizm kursları fəaliyyətə başladılmışdı. Bu ekskursiyaların mahiyyəti əsasən Bakının zavod, fabrik, müəssisə və neft mədənlərində işləyən işçilərin fərqli istehsalat sektorları ilə oxşar olmasından ibarət idi. İlin isti aylarında əsasən Xəzər dənizinin sahilinə Şüvəlan, Mərdəkan, Türkan, Buzovna, Zığ, Xəzər dənizi sahillərində yerləşən ada arxipelaqları istirahət və görmək məqsədli ekskursiyalar təşkil edilirdi. 1930-1935-ci illər ərzində Hacıkənddə ekskursiya bölmələri,  Gəncə şəhərində turizm bölmələri istifadəyə verilmişdir. Bundan başqa Proletar Turizm

Cəmiyyəti qarışıq səyahətlər formlaşdırmaq üçün əvvəlki adı ilə respublika ərazsində 15-ə yaxın yeni marşrutlar hazırlamışdı. Min doqquz yüz otuz yeddinci ildə turizm cəmiyyəti silindikdən sonra, ölkəmizdə Həmkarlar İttifaqı bölməsinin daxilində turizm şöbəsi fəaliyyətə başladı.

**Müstəqillik dövrünə qədərki mərhələ (1950-1991):** 1950-1991-ci illəri əhatə edən indiki zamanda ekologiyanın texniki hissəsi artır və çoxlu yeni uşaq əyləncə düşərcələri, turist bazaları, istirahət mərkəzləri fəaliyyət göstərir. Bakıda və ətraf yerlərdə ilk turist bazasının yaradılması 1949-ci ilin noyabr ayına təsadüf edir. O zamanda, bu hissə Nəsimi adıyla adlanan turizm parkında mövcud idi. Bakıda yaradılan turist bazalarının ardından min doqquz yüz əlli səkkizinci illərdə Mingəçevirdə və ətraf rayon və kəndlərdə, min doqquz yüz əlli doqquzuncu ildə ölkənin şimal-şərq rayonlarında, min doqquz yüz altmışıncı ildə Şəkidə və Gədəbəydə turist hissələri istifadəyə verildi. Min doqquz yüz altmış üçüncü ildə Nabranda ölkə paytaxtının turist bazasının şöbəsi kimi yüz qırx beş yerlik turist istirahət və əyləncə düşərgəsi, min doqquz yüz altmış dördüncü ildə Bakıda turizm komandası, Naxçıvan ərazisində Xəzər turist bazarı, min doqquz yüz altmış beşinci ildə Bakıda, on iki ildən sonra Gəncədə, Sumqayıtda, min doqquz yüz altmış doqquzuncu ildə Naftalanda və Mərdəkan qəsəbəsində ekskursiya şöbələri açıldı. İyirminci əsrin altmış beşinci illərindən başlayaraq, ölkədə kurort-sanatoriya xidmətləri də genişlənməyə başladı. Xüsusilə, min doqquz yüz yetmişinci illərdə Abşeronda və ətraf rayonlarda bəzi sanatoriya bazaları istifadəyə verildi. Ölkə ərazisində xarici və yerli turizm marşurutlarının keçməsi, turizmin sürətlənməsinə köməklik etdi. Belə ki, həmin dövrdə çox məhşur və tanınan Daşkənd-Səmərqənd-Buxara-Krasnovodsk-Bakı-Tiflis-Təl-Əviv marşurut xəttdi hazırda hamı tərəfindən də bilinən və yeni düzəldilən olunan İpək Yolunun keçdiyi zolaqları əhatəliyir. Müstəqillik illərin qədər ölkəmiz Azərbaycanda turizmin inkişafının ən yüksək səviyyəsinin min doqquz yüz səksəninci ilə təsadüf edir. Həmin zamanda respublikamıza bir çox xarici ölkələrdən altmıdan çox, Rusiyadan və indiki MDB ölkələrindən iki yüz altmış mindən çox turist gəlmişdi. Həmin il ölkə

vətəndaşlarının on iki min nəfəri başqa yerlərdə, üç yüz min nəfərə yaxını isə Rusiya Federasiyası dövləti ərazisində turist kimi səfərlərində olmuşlar. Bildiyimiz kimi, min doqquz yüz səksən səkkizinci ildə Ermənistan və Azərbaycan arasında başlanan münaqişə turizm təsərrüfatında idarəolunma sisteminin dağılmasına səbəb oldu. Bu səbəbdəndə, Azərbaycanda turistlərin gəlməyinə təsir edərək zəiflədi və axırda fəaliyyət göstərən ümumi ittifaq və beynəlxalq turist marşurutları silindi. Dağlıq Qarabağımızda məlum üzücü hadisələrin və proseslərin də baş verməsi, keçid zamanının çətinlikləri, dözülməzsizlikləri və məlumatsızlığı iqtisadi-mədəni əlaqələrin sınmasına və təmizlənməsinə, turizm və inkişafına mənfi təsir etdi və ən sonda turizm sektoru və yaranan müəssisələr fəaliyyətini bağlamağa məcbur qaldılar.

**Müstəqillikdən sonrakı mərhələ:** Son dövrdə isə Azərbaycanda turizmin inkişafı göz qabağındadı. Bu göstəricilər inkişaf etmiş ölkələrə nisbətən zəif olsada günü-gündən inkişafda olan turizm sahəsi sonunda yüksək səviyyəyə çatacaqdır. Azərbaycan Respublikasının turizm haqqında qanun nəticəsində turizm olan yüksək marağı görmək mümkündür.

**Cədvəl 1: Azərbaycan Respublikasına gələn və Respublikamızdan xarici ölkələrə gedən turistlərin sayı(2008-2017)**

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Qəbul edilmiş turistlər | 19288 | 17009 | 17641 | 18840 | 23440 | 10605 | 10657 | 2009 | 8949 | 13455 |
| Göndərilmiş turistlər | 40319 | 42691 | 52282 | 64780 | 77991 | 81356 | 81648 | 59956 | 45050 | 49968 |
| Cəmi qəbul edilmiş və göndərilmiş turistlər | 59607 | 59700 | 69923 | 83620 | 101431 | 91961 | 92305 | 61965 | 53999 | 63423 |

**Mənbə:** Azərbaycan Dövlət Statistika Komutəsi, https://www.stat.gov.az/source/tourism/, internet resurs mənbəsinə istinadən müəllif tərəfindən hazırlanıb.

# II FƏSİL. MÜASİR DÖVRDƏ TURİZM SEKTORUNDA EKOLOJİ TURİZMİN ROLU

## 2.1. Dünya ölkələrində ekoloji turizmin cari vəziyyəti və formalaşma xüsusiyyətləri

Ən sürətlə böyüyən sektorlar arasında yer alan turizm əksər ölkələr baxımından önəmli bir ekonomik mənbə olaraq görülməkdədir. Bunun fərqində olan ölkələr turizm elementinin davamlılığını və etibarlılığını təmin etmək üçün səy göstərirlər. Davamlılığının əhəmiyyəti ilə birlikdə təbiət (dağ, meşə, dəniz, çay, göl kimi və s.) əsaslı fəaliyyətlər artmış və ətraf mühitə əhəmiyyət verən alternativ turizm növləri ortaya çıxmışdır ki, bunlardan biri də ekoloji turizmdir. Hər kəsin də bildiyi kimi gəzmək vəya səyahət etmək ilk növbədə pul xərcləməyi tələb edir ki, bu da dünya ölkələri baxımından önəmli bir valyuta qaynağı və məşğulluq imkanı yaradan bir sahədir. Bu səbəblə də turizm sektorunda yaranan bir inkişaf ölkə iqtisadiyyatına çox təsir etməkdədir. Bu səbəblə də turizmi daha maraqlı etmək xarici turistləri ölkəyə cəlb etməklə bazar payını artırmaq və turizmin davamlılığını təmin etmək məqsədi ilə turizmi diversifikasiya ehtiyacı ortaya cıxmaqdadır.

Son dövrdə dünya ölkələrində turist təhsil səviyyəsinin artması və yüksəlməsi ilə turizmə olan baxış bucağı dəyişmiş eyni zamanda təbiət və ətraf mühit haqqında şüur artmış və turizmə olan istək və tələbləri fərqliləşmişdir. Turizmin yalnız dəniz, qum və günəşdən ibarət olmadığını eyni zamanda uzun müddətli turizm faktına sahib olmaq və bu dəyərini itirməmək üçün turizmin davamlılığının necə təmin olunacağı istiqamətinə maraq artmışdır. Ekoturizm də geniş sahələrdəki ekoloji quruluşla birlikdə düşünülməsi lazım olan bir turizm növü olduğundan, bütün turizm növlərində bunların tarazlığını pozacaq müdaxilələrdən qaçınılması ana məqsəddir. Ekoturizm ətraf mühitin qorunması və kurortların davamlı olmasını təmin etmək üçün əlavə addımlar atmağa nəzərdə tutan istiqamətlərə səyahət edir. Turistlər ətraf mühitə və kurortun qorunma səylərinə təhsil verərkən təbiətin bütün təbiətlərini təqdim etməyə imkan verir. Bu günün ehtiyaclarını qarşılayarkən

təbiəti və təbii qaynaqları qorumaq və gələcək nəsillərə yaxşı bir ətraf mühit buraxmaq üçün edilən fəaliyyətlər olaraq təyin olunan davamlılığı əhəmiyyəti ilə birlikdə turizm içərisində təbiət əsaslı fəaliyyətlər artmış və təbiətə əhəmiyyət verən alternativ turizm növləri ortaya çıxmışdır. Bu turizm növlərindən biridə yaşıl turizm, xüsusi maraq turizmi, məsul turizm kimi bir çox fərqli bir adla ifadə edilən ekoturizmdir. Ekoturizm bütün təbii xəzinələri araşdırmaq üçün mükəmməl bir variantdır.

Son illərdə artıq ekoloji turizm dünyanın hər bir ölkəsinə yayılmışdır. Ölkəmizin dünyanın digər ölkələrindən ekoloji turizm baxımından fərqləndirən əsas əlamətlər, üstünlüklər və ya problemləri haqqında bilmək üçün əvvəlcə dünya ölkələrinin imkanları haqqında maraqlanmaq lazımdır.

**Cədvəl 2: Qitələr üzrə yerləşən ən məşhur milli parklar**

| | **Qitələr** | | | | |
|---|---|---|---|---|---|
| | **Amerika** | **Asiya** | **Afrika** | **Avropa** | **Okeaniya** |
| **Milli Parklar** | İquazu | Chitvan | Serengeti | Plitvice Gölləri | Fuji-Hakone-İzu |
| | Yosemite | Komodo | Kalimancaro | Görəmə | Böyük Set Rəsifi |
| | Böyük Kanyon | Kaziranga | Etosha | | Fiorland |
| | Yellowstone | Ciucaygau | Krugər | | |
| | Ekvadorlguaçu | | | | |
| | İsla Bastimentos | | | | |
| | Dəniz Parkı | | | | |
| | Torres Del Paine | | | | |
| | Qalapagos | | | | |

**Mənbə:** https://whc.unesco.org/en/list/, internet resurs mənbəsinə istinadən müəllif tərəfindən hazırlanıb.

Yuxarıda qeyd olunan şəkildə Unesconun Dünya Mirası siyahısındakı milli parkları görmək mümkündür.

Qitə və ya materik olaraq bir bölüşdürmə etsək dünyanın ekoturizm baxımından ən zəngin qitələrindən biri Amerika qitəsidir. Amerika qitəsində ekoloji turizmlə

zəngin olan ölkələrə Amerika Birləşmiş Ştatlarını, Kanadanı, Latın Amerikası ölkələrindən də Çilini, Braziliyanı, Argentinanı, Boliviyanı, Uruqvay, Paraqvay, Panama, Ekvador kimi ölkələri misal göstərmək olar. Bu ölkələr haqqında daha yaxından danışaq.

Amerika Birləşmiş Ştatları ümumiyyətlə turizmdən dünya ölkələri arasında ən çox gəlir əldə edən ölkə olaraq bilinir və hər kəsə məlum olduğu kimi ekoturizm cəhətdən də çox zəngin bir dövlətdir. Bu ölkənin Kordilyer və Appalaç dağlarını, Böyük göllər silsiləsinə aid Yuxarı Miçiqan, Huron Eri Ontario gölləri və bu göllər üzərində yerləşən Niaqara şəlaləsi, Kolumbiya, Kolorado kimi dağ, Missisipi kimi isə düzənlik çayları, geniş sahillər və vəhşi heyvan növlərinin xüsusilə də quş növlərinin müxtəlifliyi və s. kimi zəngin turizm potensialına malikdir. ABŞ mümkün olduğu qədər öz imkanlarından istifadə etməyə çalışır. Demək olar ki, bütün ekoturizm həvəskarlarının maraqlandıran hər bir ekoloji turizm növü Amerika Birləşmiş Ştatlarının coğrafiyasında mövcuddur. Hündür sıldırımlı dağları dağa dırmanma idman növü ilə məşğul olan və ya xizəklə məşğul olan insanları (alpinistləri), yuxarıdan axan dağ çayları su idman növü ilə məşğul olan idmançıları maraqlandırır ki, Amerika Birləşmiş Ştatlarında da bu potensial mövcuddur. ABŞ-da yaşayan ekoturizm, milli parklar və təbiət qoruğu kimi qorunan ərazilər də zəngindir. İlk dəfə ABŞ-da 1870-də ortaya atılan dövlətin sahibliyi altında təbii qoruma sahəsi anlayışı, bu gün dünya səviyyəsində çox sayda milli parkla həyat tapır. Yellowstone, köhnə ABŞ Başçısı Ulysses S. Grant'in min səkkiz yüz yetmiş ikinci ildəki imzasıyla dünyanın ilk rəsmi milli parkı oldu. Bundan başqa isə Amerika Birləşmiş Ştatlarında Unesconun dünya mirası siyahısında yer alan dünyaca böyük iki parklarları vardır ki, bunlar Yosemite milli parkı və böyük Kanyondur. California əyalətində, 3184 kvadrat kilometr sahəyə sahib Yosemite Milli Parkında aydın göllər, qranit qayalıqlar, şəlalələr, şam meşələri və Sekoya ağacları diqqəti çəkir. Arizona əyaləti sərhədində olan, Colorado çayının beş milyon yarım illik hərəkətləri nəticəsində ortaya çıxan Böyük Kanyon'da, sarı, qırmızı, narıncı, çəhrayı, qəhvəyi və yaşıl rənglərdə vadilər, dik

uzun yollar, qət və qaya layları gözə dəyir. Kanyonu bəzi bölgələrində dərinlik 1600 metri tapır. Qırmızıdərililərin yaşayış sahələrinə ev sahibliyi edən Kanyonda yaşayan heyvanlar arasında, california akbabası, çalıkuşu, qaranquş, ağcaqanad quşu, quzğun, maral, qoyun, çaqqal, dağ aslanı, vaşaq, qara ayı, yenot, dələ, Amerika sincabı, skuns, zınqırovlu ilan və kərtənkələlər var.Ekoturizm prinsipləri və davranışları ABŞ-da çox daha sürətlə daha geniş yayılmışdır; məsələn, bəzi bölgələrdə olan oteller daha sürətlə inkişaf etmək üçün çalışırlar və buda ölkənin ekoturizmə necə fikir verdiyinin göstəricisidir.

Azərbaycanımızın çox sürətlə inkişaf etdiyi bu dövrdə turistlik yerlər çox artmışdır ki, bunu da yeni açılmış yerlərdən və öz növbəsində artmış olan işçi sayından da bilmək heç də çətin deyil. Araşdırmalar edildikən sonra məlum olur ki, respublikamızın digər bölgələri ilə müqayisədə turizm sahəsində paytaxtımız mütləq üstünlüyə malikdir. İlk növbədə, turizm infrastrkturunun, turizm müəssisələrinin, obyektlərinin və təşkilatlarının çox böyük bir hissəsi ölkə paytaxtımız Bakı şəhərində qərarlaşıb və möhkəmlənmişdir. Ölkəmizdə beynəlxalq dünya standartlara cavab verən, hətta yüksək ulduzlu otel və qonaqlamaların, yəni dörd və beş ulduzlu otellərin, turistlər üçün təşkil olunmuş və təşkil olunmaqda davam edən turların mərkəzlərinin, imkanlarının yetmiş beş % məhz paytaxtımız Bakı şəhərindədir. Bu isə dünya ölkələrinin müxtəlif nöqtələrindən ölkəmizə gələn turistlərin region və qıraq şəhər və ya kəndlərdə deyildə, paytaxt Bakı şəhərində cəmləşməsinə və üstünlüyü daha çox bir nöqtəyə cəmləşdirməyə və ölkəmizin çox gözəl olan region, şəhər və ya kəndlərinin gözəlliklərinin bir növ gizlədilməyinə səbəb olur. Lakin ölkə iqtisadiyyatının və ölkəmizin dünyada tanıtmaq, daha inkişafını təmin etmək, onu dünya sıralamasında daha da qabağa gətirmək üçün ölkənin bütün regionlarında turizmin inkişafna səy göstərmək lazımdır.

**Cədvəl 5: Turizm üçün xarakterik sahələr üzrə göstəricilər**

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Turizm üçün çalışan işçilərin sayı, (nəfər) | 36 103 | 36 899 | 37 600 | 38 839 | 40 892 | 41 886 | 49 449 | 43 477 | 46 837 |
| Turizm üçün yaradılmış əlavə dəyərin həcmi, (mlyn. manat) | - | - | - | - | 2080,20 | 2404,20 | 2437,3 | 2746,1 | 3151,0 |
| Turizm üçün yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, (faizlə) | - | - | - | - | 3,6 | 4,1 | 4,5 | 4,3 | 4,5 |
| Turizm investisiyaların həcmi, (mlyn. manat) | 527,8 | 949,2 | 1407,8 | 1478,2 | 1371,00 | 2204,00 | 1063,9 | 363,0 | 267,3 |

**Mənbə:** Azərbaycan Dövlət Statistika Komutəsi, https://www.stat.gov.az/source/tourism/, internet resurs mənbəsinə istinadən müəllif tərəfindən hazırlanıb.

Yuxarıda görülən cədvəl 1.5-də Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsindən alınmış məlumatlarda Respublikamızda turizm ilə əlaqəli bölmələrdə işliyənlərin sayı, bu sahələr üzrə ayrılan investisiyaların ümumi məbləği kimi göstəricilər iki min doqquzuncu ildən iki min on yeddinci ilə qədər olan bir dövrdə təyin edilmiş və göstərilmişdir. Müasir dövrdə turizm sahəsinin dayanmadan inkişaf etməsi və genişlənməsi məlum olduğu kimi bu sahədə sosial-iqtisadi inkişafı əsas aparıcı silaha çevirib. Bu, əlbətdə ki ,özünü yeni iş obyektlərinin başlamasına, turizmlə əlaqəli təşkilatların, müəssisələrin və infrastrukturun qurulmasında özünü bilavasitə göstərir. Bildiyimiz kimi, turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə çevrilib və turizmdə ölkəmizin rəqabət imkanları çox yüksəkdir. Rəngarəng iqlimimiz təbii sərvətlərimiz zəngin tarixi mədəniyyət abidələrimiz möhtəşəm turizm məhsulu yaratmaq üçün bir mənbədir. Demək olar ki, son on il müddətində Azərbaycanda turizmə olan

həvəsləndirmək ilə bağlı atılan addımlar, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın daha da inkişaf etdirilməsi bunu bir daha təsdiqləyir. Bu tədbirlər və islahatlar nəticəsində ölkəmizdə turizm sektoru yeni mərhələyə keçdi, ölkəmiz dünya ölkələri arasında yeni turizm istiqaməti kimi tanınmağa başlayıb, beynəlxalq turizm bazarına inteqrasiyası yəni daxil olması ilbəil daha geniş sürətdə təmin olunur. Hamının da bildiyi kimi internet və sosial şəbəkələrin inkişaf etdiyi bu zamanda bir ölkə onun təbiəti coğrafiyası insanları və mədəniyyəti haqqında elədə çox bir məlumata çox daha asan yolla çatmaq mümkündür.

Ölkəmizdə turizmin bir çox növləri inkişaf edib və etməkdədir. Bunlara aşağıdakılar:

- Müalicə-sağlamlıq turizmi
- İşgüzar turizmi
- İdman turizmi
- Çimərlik turizmi
- Qış turizmi
- Ekzotik turizmi
- Ovçuluq turizmi və s. aiddir.

Müalicə-sağlamlıq turizminə dünyanın heç bir yerində bənzəri olamyan təbiət, mineral su zonaları, dünya ölkələri arasında yeganə müalicəvi sağlamlaşdırma yeri Naftalan neftini, Naxçıvanda yerləşən Duz dağını, böyrək daşlarınının düşürülməsində möcüzəvi effektə malik Qaşaaltı suyunu misal göstərmək olar. Ölkəmizin son illərdə üstləndiyi bir çox idman növləri bir çox idman sevənlərin ölkəmizə səfər etməsinə vəsilə olmuşdur.

Azərbaycanın kənd təsərrüfatı rayonlarının zəngin mədəni-tarixi irsinin mövcudluğu iqlim və landşaft özəlliklərinin fövqəltəbii sayda müxtəliflityi ölkəmizdə zəngin turizm potensialına malik aqroturizmin üçün ideal ərazi formalaşdırır. Ölkəmizdə turizm sektorunun inkişafının istiqamətlərindən biri də rekreasiya (sağlamlığın bərpası) turizmidir lakin ölkəmizdə bu istiqamətin heç də

bütün sahələri kifayət qədər inkişaf etməyib. Ekoturizm kimi maraqlı istiqamət yenicə inkişaf etməyə və populyarlıq qazanmağa başlaylır. Ölkəmiz təkcə yay aylarında turizmə deyil, hətda qış aylarında turizmlə məşğul olsun deyə heç dayanmadan turizm haqqında qarşıya qoyulan məqsədə çatmaq üçün yəni olmaq üçün qış turizm bazasının fəaliyyətə başladılması və əvvəl yaddaşlarda olan hər hansı bir mövsüm üçün gələn turist anlayışının yaddaşlardan silinməsi zərurəti yaranıb. Bu qarşıya qoyulan məqsədə çatmaq üçün isə, Şahdağ zonasında yay-qış turizm kompleksi yaradılib və fəaliyyətə başladılmışdır. Ümumiyyətlə isə Şahdağ ərazisində yaradılan yay-qış turizm kompleksi dünyadakı bunun kimi komlekslərdən müasir yenilikləri və universallığı ilə fərqlənir. Bu iri turizm və istirahət məkanlarının inşası göstərir ki, ölkəmizdə və regionlarımızda yalnız yay turizminə deyil onunla birgə ona daha çox uyöun olan turizm növlərinin də bu sahədə öz sözünü deməyə və bu sahədə yeni-yeni obyektlərin, fikirlərin, ölkəmizi dünyada tanınmasını daha da təmin edəcək düşüncələrin yaradılmasına xüsusi diqqət göstərilir. Bu iki komleks dünyaca məhşurlaşmışdır ki, bunu da hər il gələn turistlərin sayından bilmək olar. (Əlirzayev Ə.Q., 2010.) Müalicə komplekslərinin sayı ölkəmizdə heç də az deyil. Bunlara misal olaraq Naftalanda oynaq, Naxçıvanda isə ağciyər xəstəlikləri üzrə müalicə almaq üçün komplekslər yaradılmışdır. Ölkəmizdə turizmin inkişafı ilə yeni müalicə məqsədi daşıyan kompekslər fəaliyyətə yaradılır ki, bunlardan biri də yeni fəaliyyətə başlamış Lənkəran İstisu və Sağlamlıq Mərkəzidir. Yeni yaradılan bu mərkəzdə qan dövranı, sinir sümük-əzələ sistemlərinin birləşdirici toxumaların, tənəffüs orqanlarının, həzm sisteminin və digər xəstəliklərin müalicəsi nəzərdə tutulur. Ölkəmizə səfər edən turistlərin istirahət etmək ölkəmizin görməli səfali yerlərinə getmək coğrafiyamızın müxtəlifliyindən həzz almaq məqsədi güdür. Azərbaycanın ərazisi qədim yaşayış məskənləri olduğundan ölkədə çoxlu sayda qədim abidə və müxtəlif mədəniyyətlərin izlərinə rast gəlmək mümkündür. Bu qoruqlarla və ya milli parklarla ümumiyyətlə bir turist üçün ölkəmizdə gəzib istirahət edə biləcəyi hər bir

zona sahə haqqında yaxından danışaq. Bunun üçün ölkə turizm potensialı haqqında iqtisadi coğrafi rayonlara bölərək danışşaq daha məqsədə uyğun olar.

**Cədvəl 6: Qəbul edilmiş və göndərilmiş turistlərin iqtisadi rayonlar üzrə sayı**

| İqtisadi rayonlar | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| Ölkə üzrə - c ə m i | 69923 | 83620 | 101431 | 91961 | 92305 | 61965 | 53999 | 63 423 |
| Bakı şəhəri | 57416 | 69207 | 88238 | 77987 | 77560 | 47212 | 40550 | 40 396 |
| o cümlədən: | | | | | | | | |
| Binəqədi rayonu | 4058 | 4869 | 7836 | 7496 | 5951 | 1853 | 1 377 | 1105 |
| Səbail rayonu | 15535 | 14419 | 38481 | 29767 | 28032 | 14551 | 19311 | 15 386 |
| Nərimanov rayonu | 964 | 724 | 9834 | 12576 | 11287 | 11119 | 3363 | 5357 |
| Nəsimi rayonu | 6225 | 6078 | 3784 | 5575 | 9724 | 7933 | 5698 | 6874 |
| Xətai rayonu | 1982 | 1721 | 2275 | 1414 | 1 368 | 557 | 439 | 845 |
| Yasamal rayonu | 27501 | 41396 | 19358 | 17304 | 17429 | 9437 | 5379 | 7868 |
| Abşeron iqtisadi r. | 271 | 342 | 324 | 357 | 533 | 310 | 34 | 26 |
| o cümlədən: | | | | | | | | |
| Sumqayıt şəhəri | 271 | 342 | 324 | 357 | 533 | 310 | 34 | 26 |
| Gəncə-Qazax i.r. | - | - | - | 48 | 132 | 232 | 335 | 10006 |
| o cümlədən: | | | | | | | | |
| Gəncə şəhəri | - | - | - | 48 | 132 | 232 | 335 | 295 |
| Lənkəran iqtisadi r. | | | | | | | | 50 |
| Şəki-Zaqatala iqtisadi rayonu | - | - | - | - | - | - | - | - |
| Quba-Xaçmaz i. r. | - | - | - | - | - | - | - | - |
| Aran iqtisadi rayonu | 1281 | 185 | 786 | 981 | 1 372 | 1 445 | 192 | 115 |
| o cümlədən: | | | | | | | | |
| Mingəçevir şəhəri | 1281 | 185 | 786 | 917 | 1 007 | 1 294 | 7 | - |
| Dağlıq Şirvan i. r. | - | - | - | - | - | - | | - |
| Naxçıvan Muxtar Respublikası | 10955 | 11825 | 12083 | 12588 | 12708 | 12766 | 12798 | 12 830 |

**Mənbə:** Azərbaycan Dövlət Statistika Komutəsi, https://www.stat.gov.az/source/tourism/

Yuxarıda görülən cədvəl Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsindən alınmış məlumatlarda, Respublikamızın iqtisadi coğrafi rayonlarına 2010-2017-ci illər aralığında gələn turistlərin sayından danışılır. İndi isə bu iqtisadi rayonların hər birinin ayrı-ayrılıqda turizm potensialı haqqında danışaq.

Azərbaycanın turizm imkanları ilə tanınan və hər il minlərlə insanın istirahət etdiyi regionlarından biri Quba-Xaçmaz iqtisadi coğrafi rayonunun ərazisinə düşən Xaçmaz rayonudur. Uca dağları, Xəzər dənizi boyunca uzanan meşələri, zəngin təbiəti, özünəməxsus mətbəxi və adət-ənənələri baxımından bu rayon turistlər üçün çox cəlbedicidir. Rayonda qeyri-neft sektorunun inkişafı üçün hər bir imkanlar vardır. Xaçmaz rayon əhalisinin əsas gəlir mənbəyi məhz elə turizm və kənd təsərrüfatıdır. Rayon daha çox ev şəraitində hazırlanmış müalicəvi meyvə şirələri və içkilərlə də məhşurdur. Xaçmaz rayonunun təbii-coğrafi mövqeyi onu Azərbaycanın ən tanınmış turizm məkanlarından birinə çevirib. Burada ən çox çimərlik turizmi inkişaf edib ki, rayon ərazisində yerləşən Nabran istirahət mərkəzi həm ölkə əhalisi həm də xarici turistlər tərəfindən ən çox sevilən məkanlardandır. Bundan başqa isə, rayonda Nabrandan 7 km məsafədə Tel kəndi yerləşir. Bu kəndin ərazisi ov həvəskarları üçün əsl tapıntıdır. Kənddən bir qədər aralıda isə palçığı ilə müxtəlif dəri xəstəliklərinin dərmanı olan palçıq vulkanı var. Ümumiyyətlə bu rayona səfər edən turistlər daha çox istirahət və ya əyləncə və müalicə turizminə üstünlük verirlər. Quba-Xaçmaz iqtisadi rayonu əsasən dağlıq ərazini tutduğundan bu iqtisadi rayonda böyük dərəli çaylar çoxdur. Bundan başqa isə, ölkənin ən hündür zirvəsidə bu rayonda yerləşir. Əsas olaraq isə müalicə turizmi ilə maraqlanan insanlar üçün bura bir cənnətdir. İqtisadi rayon ərazisidə Siyəzən rayonunda yerləşən Qalaaltı, Quba rayonunda yerləşən Xaltan, Cimi, Xaşını misal göstərmək olar. Bundan başqa isə, iqtisadi coğrafi rayon ərazisində ölkənin ən hündür yaşayış məskənlərinin olduğu Xınalıq və Qrız kəndləri yerləşər. Belə ki, Quba royunu ərazisində yerləşən bu kəndlər fisunkar və valehedici təbiəti ilə bura gələn qonaqları heyran edir. 2000 metrdən hündürdə yerləşən bu kəndlər

uca sıldırımlı zirvələri ilə, ilin bəzi fəsillərində donan şəlalələri ilə məhşurdur. (Əlirzayev Ə.Q. 2010. səh.56)

Azərbaycanın paytaxtı Bakı şəhərinin yerləşdiyi Abşeron iqtisadi coğrafi rayonu ölkəyə gələn turistlərin böyük bir hissəsinə ev sahibliyi edir. Rayonun ərazisi Qobustan və Abşeron yarımadasında cəmləşmişdir. Abşeron iqtisadi rayonu çoxlu palçıq vulkanları, zəngin neft-qaz və müxtəlif tikinti materialları yataqları, müalicə əhəmiyyətli mineral suları ilə zəngindir. Dünyada olan 2000-dən artıq palçıq vulkanlarının 344-ü ölkəmizdə yerləşir. Dünyanın ən böyük palçıq vulkanı isə 400 metr hündürlükdəki Torağay palçıq vulkanı məhz, Azərbaycan ərazisində Abşeron iqtisadi coğrafi rayonunda yerləşər. Bundan başqa, iqtisadi rayonda Suraxanı, Şıx müalicə əhəmiyyətli mineral sular da mövcuddur.

Ağsu, Şamaxı, İsmayıllı, Qobustan inzibati rayonlarının tərkibində olduğu Dağlıq Şirvan iqtisadi coğrafi rayonu, digər iqtisadi coğrafi rayonlardan iqliminin müxtəlifliyi ilə fərqlənir. Ölkə ərazisinin yeddi faizini təşkil edən bu iqtisadi rayonun relyefi dağlıq və düzənlik ərazilərdən ibarətdir. Əsasən dağlıq hissələrdən ibarət olduğuna görə əhalisi digər iqtisadi coğrafi rayonlara nisbətən daha seyrək məskunlaşıb. İqtisadi rayon əsasən dərman bitkiləri ilə tanınır. Təkcə Şamaxı rayonunda 50-dən artıq dərman bitkisinə rast gəlmək mümkündür. Dağlıq Şirvan iqtisadi rayonu Quba-Xaçmaz iqtisadi rayonu kimi qış turizmi üçün idealdır. Şamaxı rayonu ərazisində olan Pirqulu turizm və bura gələnlərin istirahəti üçün çox gözəl potensiala malikdir. İki min on üçüncü ilin aprel ayında yeddi yüz qırx üçüncü ilin yadigarı Şamaxı Cümə Məscidinin və Şamaxı Astrofizika Rəsədxanasının təmir edilməsindən sonra fəaliyyətə verilməsi, Şamaxı-Avaxıl yolunun bərpası Şamaxı rayonuna daha da çox insanların gəlməsinə vəsilə olmuşdur. Ölkəmizin fisunkar təbiətlərinə malik rayonlardan biri də İsmayıllı rayonudur. Rayon keçmiş zamanlardan istidafə edilən bir zona olduğundan rayon ərazisində Cavanşir, Qız, Qasımxan, Niyal və Mustafa xan qalaları kimi qədim abidələri ilə zəngindir. Bütövlükdə isə rayonda 233 tarixi və mədəniyyət abidələri qorunub saxlanılır. Rayonun ən çox turist qəbul edən hissəsi isə Lahıc və Basqal

qəsəbələrdir. Lahıc və Basqal qəsəbələrində çox qədim zamanlardan xalq sənətkarlığının inkişafı, milli üslubda tikinti işlərinin aparılması xalqımızın memarlıq ənənələri haqqında canlı təsəvvür yaradır. Bundan başqa isə, rayon ərazisində Qalacıq, Çayqovuşan, İstisu kimi kəndlərdə kəndin hər tərəfindən axan bulaqları və hündür şəlalələri ilə turistlərin sevdikləri zonalardandır.

Azərbaycan Respulikasının ekoturizmlə zəngin bölgələrindən biri sayılan Şəki-Zaqatala iqtisadicoğrafi rayonu Balakən, Qax,, Qəbələ, Oğuz Zaqatala, Şəki rayonlarını əhatə etməklə ölkəmizin şimal-qərbində yerləşir. Şəki-Zaqatala iqtisadi coğrafi rayonunun ən çox inkişaf etmiş rayonu Şəkidir. Ölkəmizdə turizmin indiki kimi inkişaf etmədiyi zamanlarda Avropanın bir çox ölkəsindən xüsusilə Almaniyadan olan insanlar hətdə qış aylarında belə Şəkiyə gəlib istirahət etməyi çox sevirdilər. Şəki paytaxtdan sonra ən çox ziyarətçi qəbul edən şəhərlərimizdəndir. Şəki şəhərində yerləşən Şəki xan sarayı, Qala divarları, Gileyli məscidinin minarəsi, Aşağı və Yuxarı Karvansaraylar, Ağvanlar hamamı, Gavur qalası, orta əsrlərə aid Qudula qala yeri, Aydınbulaqda Ağcaqala qülləsi, Kiş kəndi yaxınlığında yerləşən orta əsrlərə aid Kiş məbədi, XV əsrdən qalan Gələrsən Görərsən qalası şəhərə gələn turistlərin ən çox ziyarət etdikləri tarixi mədəniyyət abidələridir. Şəhər dağlıq ərazidə yerləşdiyindən dağlıq və meşəlik ərazilərlə əhatə olunub ki, ətraf mühiti flora və faunasına görə də öz rəngarəngliyi ilə fərqlənir. Son illərdə ölkəyə gələn turistlərin əksər hissəsi Qəbələyə üz tuturlar. Bu gun turizm sektoru Qəbələ rayonunda iqtisadiyyatın ən önəmli sahəsi olmaqla bərabər kiçik və orta sahibkarlıq üçün uyğun baza yaradır. Hər il müxtəlif cür layihələrə ev sahibliyi edən Qəbələ bununla yanaşı turistləri də bura cəlb edir. Ölkənin əsas turizm mərkəzi sayılan Qəbələ şəhəri qış turizmi ilə ətraf mühitin zənginliyi ilə şəlalələr ilə bir sözlə ekoloji turizmlə maraqlananlar üçün ideal bir məkandır.

Azərbaycan Respublikasının ən çox şəhərdən ibarət olan və ərazisinə görə ən böyük iqtisadi rayonu Aran iqtisadi coğrafi rayonudur. Aran iqtisadi coğrafi rayonu düzənliklərdən çaylardan dəniz kənarı düzənliklərdən ibarət olduğuna görə yaz və yay aylarında müxtəlif cür quş növlərinin istirahət etdikləri yerlərdən ibarətdir.

İqtisadi rayon ərazisində məhz bunun üçün Qızılağac və Ağgöl qoruqları fəaliyyət aparırlar ki, bu da köçəri su quşlarının qorunması üçün çox əhəmiyyət kəsb edir. Bundan başqa, iqtisadi rayonda Şirvan milli parkıda yerləşir. Şirvan milli parkının istifadəyə verilməsində və fəaliyyyətə başladılmasında əsas düşüncə olaraq yarımsəhra landşaftının əsas xüsusiyyətlərini, ölkəmizdə olan Qırmızı kitabına düşmüş cüyürləri və həmin torpaqlar üçün aid olan olan bitki və heyvan növlərini ziyan dəyməməsinə çalışmaq, ekoloji yoxlanışı həyata keçirmək, ölkədə yaşayan insanların ekoloji cəhətdən daha çox maarifləndirmək, turizm və istirahət üçün daha da gözəl şərait yaratmaqdır. Turistlər Aran iqtisadi coğrafi rayonunun milli parklarına gələrək buranın ekzotik quş növlərini izləyə flora və faunasından həzz almaq imkanlarına sahib ola bilərlər.

Gəncə və Naftalan kimi turistlik şəhərləri əhətə edən Gəncə-Qazax iqtisadi coğrafi rayonu ekoloji turizm cəhətdən böyük potensiala malikdir. İqtisadi rayon Azərbaycanın faydalı qazıntıları ilə zəngin olan bir iqtisadi coğrafi rayonudur ki, rayon ərazisində neft təbii qaz kükürdlü kalçedan, kobalt, barit, dəmir filizi, alunit, əhəng-daşı, mərmər, gips, seolit, bentonit qili, sement xammalı kimi faydalı qazıntıları iqtisadi rayonun yeraltı ehtiyatları vardır. Gəncə-Qazax iqtisadi coğrafi rayonu iqtisadi əhəiyyətinə görə ölkə də ikinci yerdədir. Ümumiyyətlə Gəncə şəhəri bütün dünyada öz tarixi mədəniyyət abidələri ilə məhşurdur. Belə ki, Gəncə də 504 tarixi abidə siyahıya alınıb. Bunlardan 288-i dövlət tərəfindən qorunur. Bunlardan ən çox ziyarət edilənləri isə, Şahsevənlər məscidi, Xan bağı, Alman kilsəsi, Comərd Qəssab türbəsi, Alban məbədi, Uğurlu Bəy karvansarasını misal göstərmək olar. Gəncə şəhəri birdə məhşur Göygölü ilə dünyaca tanınır. Rəssamların heyranlıqla şəkilin çəkdikləri bu göl indi qoruq olaraq fəaliyyətini davam etdirir. Qoruqda çayda yaşayan forel balıqlarından çox fərqlənən Göygöl forel balıqları qorunur. Gəncə şəhəri kimi il ərzində minlərlə turisti qəbul edən bir digər şəhər isə Naftalan şəhəridir. Naftalan şəhəri bütün dünyada Naftalan nefti ilə tanınır.

Yuxarı  Qarabağ iqtisadi coğrafi rayonu Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Fizuli, Əsgəran, Xankəndi rayonlarını əhatə edir. İqtisadi coğrafi rayonun ən çox inkişaf edən şəhəri Xankəndidir. Yuxarı Qarabağ iqtisadi coğrafi rayonunun Xankəndi, Xocavənd, Cəbrayıl, Xocalı, və Şuşa royunlarının əraziləri tamamilə, Ağdam və Fizuli rayonlarının isə böyük bir hissəsi erməni işğalı altındadır. Bu səbəbdəndir ki, ölkənin bu iqtisadi rayonunda turizm potensialının zəngin olmasına baxmayaraq turizm inkişaf etməyib.

Yuxarı Qarabağ iqtisadi coğrafi rayonu kimi Kəlbəcər-Laçın iqtisadi coğrafi rayonu da erməni işğalı altındadır.

Ölkəmizin yaşıl ərazilərindən biri də Lənkəran,  Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı rayonlarını əhatə edən Lənkəran iqtisadi coğrafi rayonunun tərkibində cəmləşmişdir.  İqtisadi rayonun böyük bir hissəsini Talış dağları və Lənkəran ovalığı tutur. İqtisadi rayonun ən çox inkişaf etmiş və önəmli şəhəri Lənkərandır. Tarixi -mədəniyyət abidələrinə, zəngin təbii sərvətlər və təmiz iqlim şəraitinə malik cənub rayonlarımız əsasən şimal və şərq cəhətlərindən ölkəmizin sahillərini yuyan Xəzər dənizi, qərb tərəfdən  çoxda hündürlüyə malik olamyan Talış sıra dağları ilə əhatələnib. Lənkəranda bugun Xanbulan, Qala, Qızıl Tac turizm istirahət mərkəzləri, Hirkan adında qoruq və milli park, Qafqaz adı ilə tanıanan isə sahil mərkəzi kimi turistlərin gəlmək isdədiyi yerlər və s. fəaliyyət göstərir. Lənkəran və Astara rayonlarının ərazisində yerləşən Hirkan milli parkında üçüncü dövrün endemik bitki növləri mühafizə olunur. Hirkan milli parkına gələn turistlər üçün bu möhtəşəm təbiət mənzərəsini  yaxından izləmək və həzz almaq məqsədilə 6 saatlıq piyada ekskursiya marşrutları fəaliyyət göstərir. Bundan başqa, isə Talış dağlarında qış turizmi üçün böyük potensial vardır və bu yöndə artıq lahiyələr hazırlanıb.

Azərbaycanın cənub qərbində yerləşən ölkənin əsas hissəsində ayrı olan və İran, Ermənistan və Türkiyə ilə əhatələnmiş Naxçıvan Muxtar Respublikasına 8 rayon daxildir. Bunlardan ən çox tanınanı isə, Şahbuz Dövlət Təbiət qoruğudur. Naxçıvan Muxtar Respublikası daxilində turistlərin ən çox marağında olduğu

abidələrə Mömünə Xatun türbəsini, Əshabi-Kəhfı Came məscidini və s. tarixi memarlıq abidələrini misal göstərmək olar. Naxçıvan Muxtar Respublikası təkcə Azərbaycanda deyil həmçinin dünyada mineral suları ilə məhşurdur. Belə ki, Azərbaycanın mineral su ehtiyatlarının 60 faizi Naxçıvanın payına düşür. Bu mineral sular təsərrüfatda içməli su təchizatı və müalicə əhəmiyyətinə malikdir. Bu mineral sulara Badamlı, Sirab və s. bu kimi müalicəvi suları misal göstərmək olar.

# III FƏSİL. AZƏRBAYCANDA EKOLOJİ TURİZMİN ƏSAS PROBLEMLƏRİ VƏ HƏLLİ YOLARI

## 3.1. Azərbaycanda ekoloji turizmin əsas problemləri

Müasir dünyada turizm obyektlərinin, müəssisələrin dayanmadan tərəqqisi, turizm sektorunun infrastruktur şəbəkəsi, turistlərin həm istirahət həm də əyləncəsi üçün geniş şərait yaratmaqla birgə, bir sıra problemlər yaratmaqdadır. Bu çətinliklərdən biri ətraf mühitin yəni yaşadığımız, nəfəs aldığımiz təbiətin mühafizəsi və qorunması məsələsidir. Gözəl təbiət, mükəmməl ətraf mühit, tərtəmiz hava, göl və çaylar, qumlu çimərliklər, sərin meşə sahələri, ümumiyyətlə bütün bunlar turizmi inkişaf etdirmər başlıca sərvətdir.

Ekoturizm xalqın maraqlarına və istəklərinə hörmətlə yanaşaraq ekosistemin qorunmasına öz məsləhətini verən və təbiətin başa düşülməsilə bağlı olan turizm bir növüdür. Bütün araşdırılan məlumatların hamısını ümumiləşdirərək ekoturizmin üç əsas varianta bölmək olar:

- Təbiətin və ətraf mühitin anlaşılmağı yəni səyahət etməklə təbiət xüsusiyyətlərinin olub-olmamasını öyrənilməsi, turist və yerli insanların yeni biliklər, təcrübələr və vərdişlər qazanmasını nəzərdə tutur;
- Ekosistemin qorunması həm marşrutlarda qrupların müvafiq davranışlarını, həm də yaşadığımız yerlərin mühafizəsi üzrə tədbirlərdə və proqramlarda tur operatorlarının, turistlərin iştirakını nəzərdə tutur;
- Yerli insanların maraqlanna hörmət etmək yalnız yerli qanunlara və adətlərə riayət olunması deyil, həm də turizm sahəsinin sosial-iqtisadi tərəqqisində turizmə qoyulan investisiyalardır. Yəni səyahətçi olmaq sənəti, yaxşı qonaq olmaq sənəti ilə eyni vəziyyətdədir.

Dünya və dünya ölkələrinin bəzi regionlarında, xüsusən də dağlıq və dağ ətəyi regionlarda ətraf mühiti mühafizə planlarının nəticəsi göstərir ki, işi torpaqla, meşə və ya ağaclarla yox, orda yaşayan insanlarla aparmaq lazımdır, yəni onların evlərinin və gələcəklərinin yaşayış mühitinin qurulmasında və idarə olunmasında

əhalinin aktivliyini stimullaşdırmaq lazımdır. ( Əsgərov Ə.T., BilalovB.Ə., Gülalıyev Ç.G., 2011, səh. 115)

Bu gün ölkədə altı milli park, on dörd dövlət təbiət qoruğu və iyirmi xüsusi mühafizə olunan yerlər mövcuddur. Təbiət turizmi turistlərin nəinki dincəlməsinə, eyni zamanda Azərbaycanımızı daha yaxından tanımağa imkan verir. Lakin bununla birgə müasir ekoturizm təbii resurslardan daha zərərli istifadəsi olan kənd təsərrüfatı, ovçuluq, yığıcılıq, dağcılıq, ağacların qırılması, faydalı qazıntıların istifadəsi və s. formalarına alternativdir. Azərbaycanın bir çox qoruqlarına və milli parklarına əvvəlcədən ekoturist səyahətləri kimi planlaşdırılan gəzintilər çox ciddi çatışmamazlıqlardan ibarətdir. Azərbaycan ekoturizmində maarifləndirilmə təəssüf ki, hələ inkişaf etdirilməmişdir. Adətən ekoturların və ya təbiətə ekskursiyaların əksəriyyəti ekoloji probemlərin müəyyən edilməsi və onların həllində aktiv iştirakı deyil, təbiətin möcüzələrini müşahidə etməkdən ibarətdir.

Təbiətə turizmi, buraya torpağın landşaftı, ərazinin relyefı, su, bitki və heyvanat yəni flora və fauna aləmini özündə ehtiva edan, birbaşa təbii mənbələrdən istifadəyə yönəldilmiş turizmin bütün növləri aid. Ekoloji turizmdən fərqli olaraq təbiət turizmi insanların təbiətə gəzintisini təşkil edir, orada yaşamaq şansını bütün gələnlərə verir və onların təbii mühitə ekoloji, mədəni və iqtisadi təsirini nəzərə ala bilmir. Buna görə də təbii resurs mənbələrindən ovçuluq və motorlu qayıqlara gəzintiləri kimi şəkildə istifadəsi heç də məntiqli və düzgün hesab olunmur.

Son zamanlarda hər kəsə məlum olduğu kimi Azərbaycanda turizmin inkişafı istiqamətində çox işlər görülür. Lakin ölkə də turizmlə bağlı problemlərdə az deyil. Bunlardan biri və ən böyüyü peşəkar kadr azlığıdır. Ölkəmizdə və əsasən paytaxt Bakı şəhərində bir xeyli yüksək şəraitə malik otellər var. Azərbaycanda otellərin tikintisinə 1994-cü ildən başlamaqlarına baxmayaraq elə o dövrdən peşəkar kadr hazırlığı məsələsi yaddan çıxarıldı. Sonradan da bu yöndə heç bir addım atılmadı və Türkiyədən və bəzi Avropa ölkələrindən kadrlar cəlb edilməyə başladıldı və bu proses hələ də davam etməkdədir. Ancaq gələn işçilər ölkəmizin

mentalitetinə bəzi cəhətdən uyğun olmayan istiqamətlə irəlilədilər və bizə lazım olan kadrlarımızın yetişdirilməsində və inkişaf etdirilməsində heç bir rol oynamadılar. Yeni texnologiyalar gətirsələr də, bunlar sahənin inkişafı üçün azlıq etdi. Min doqquz yüz doxsan doqquzuncu ildə qəbul edilən Turizm haqqında qanuna tam əməl olunmamasına turizmlə bağlı idarəetmənin pis qurulmasına yəni düzgün idarəçiliyin olmamasına görə turizmi tam olaraq inkişaf etdirə bilməmişik yeni yüksək uğurlar əldə edə bilməmişik. Bir başqa problem isə hazırda ölkədə mehmanxanalar və digər turizm müəssisələri olduqca inkişaf edib və günü-gündən də inkişaf etməkdədir. Ancaq boş buraxılan sahələr də var. Azərbaycanda turizmlə bağlı yatırımlar edən insanlar yalnız dörd və beş ulduzlu otellər inşa etdirərək istifadəyə verir. Lakin ölkəyə iki və üç ulduzlu otellərdə lazımdır. Nəticə də bu qiymətlərə də təsir edir ki ölkəyə gələn turistlərin istədikləri kimi istirahət edə biləcəkləri imkanlar yaranır. İndiki zamanda Amerikada 1 həftəlik səyahət hər bir vətəndaş üçün yol xərci də daxil olmaqla 5-6 min dollardan artıq etmir. Bu göstərici Birləşmiş Ərəb Əmirliklərində 1500 dollar, Şimali Kiprdə 1000 dollar, qonşu ölkə Türkiyədə isə 500-600 dollar təşkil etdir. Lakin bizim ölkəmizdə otellərin lüks şəraitli nömrələrində bir gecə qalmaq otellərə gələn insanlara 1000-2000 dollar arası bir qiymətə başa çatır. Burdan da görüldüyü kimi ölkəmizdə biraz aşağı ulduzlu otellərə ehtiyac çoxdur.

Azərbaycanda olan turizm problemlərindən biri isə bəzi qoruq və ya milli parklara girişlərə məhdudiyyət qoyulmasıdır. Prezidentimizin bir aprel 2008-ci il sərəncamına əsasən qoruq olaraq adlandırılmağa başlayan Göygöy Dövlət Təbiət qoruğu bu qadağalarla üzləşən bir milli parklarımızdan biridir. Belə ki, ölkəmizin bu fisunkar gözəlliyini gizlədərək saxlamaq mənasında olan düşüncə heçdə məntiqli deyildi. Bu baxımdan da 2015-ci ildə qoruq ərazisinə giriş qadağası götürüldü.

Ölkəmizdə ki, bir digər turizm problemi isə ölkəmizdə olan turistlik fəaliyyətlərin qeyri-peşəkarlıqla və düzgün idarə edilməməsidir. Hər ölkənin özünə məxsus bayram və festivalları olduğu kimi bizim də adət-ənənəmizə uyğun olan

ilin müəyyən zamanlarında keçirilən bəzi bayram və ya festivallarımız var. Bunlara misal olaraq Qubada keçirilən Alma bayramını, Sabirabadda keçirilən Qarpız festivalını, Qəbələ rayonunda keçirilən Mürəbbə festivalını və Göyçay rayonunda keçirilən Nar bayramını göstərmək olar. Hər il ölkə büdcəsindən pul ayrılaraq bu bayram və festivallar keçirilir. Bu kütləvi-tanıdıcı tədbirlərdə izləməyə gələn insanlar tərəfindən birmənalı qiymətləndirilməli və qənaətbəxş hesab edilməlidi. Lakin uzun illərdir turizm üçün keçirilən bu bayramlar əslində turizm üçün heç bir əhəmiyyət kəsb etmir. Bayramlardan sonra bu tədbirlərdən dolayı büdcəyə heç bir daxilolmanın olmadığından, bu təddbirlərin faydası olmadığını daha aydın şəkildə görmək mümkündür. Bir başqa tərəfdən baxdıqda, bayram vaxtları tədbirlərdə insanlar yığışır 3-4 saat bayramla bağlı tədbir keçirilir və bayram bitir. Ancaq düşünmək lazımdırki, bu bayram zamanı ölkəmizə qonşu ölkələrdən turistlər gəlirlər və onların bizim adət-ənənələrimizi daha yaxşı öyrənə bilmələri üçün bu tədbirlərin formatı dəyişilməlidi. Prezident İlham Əliyevində hər dəfə çıxışlarında dediyi kimi, Azərbaycanda turizm sənayesi yaradılmalıdır. Turizm sənayesi deyildikdə bu sənayeyə daxil olan mehmanxana, qidalanma müəssisələri, nəqliyyat şirkətləri kimi obyektlərin ayrı-ayrılıqda deyildə bir məqsəd üçün birgə fəaliyyət göstərməli olduqlarından danışılır. Birgə fəaliiyət göstərdikləri zaman isə turizmin hər bir sahibkarın fəaliyyət istiqamətinin inkişafı və ölkə iqtisadiyyatı və turizminin inkişafı deməkdir.

## 3.2. Ekoturizmin problemlərinin həlli yolları

Turizm sahəsi inkişaf etdikcə təbiətin daha çox istifadə edilərək zədələnməsi, ətraf mühitin və təbiətin çirklənməsi təhlükəsi də artmaqdadır. Odur ki, turizmin yəni ölkəyə turist olaraq gələnlərin ətraf mühitə və təbiətimizə olan zərərli, mənfi təsirini tamamilə silmək, müasir turizm sahəsinin qarşısında duran ən mühüm problemlərdəndir. Bu baxımdan da ekoloji turizmin və ya ekoloji turizm inkişaf və daha çox diqqət yetirilməsi, həvəsləndirilməsi əhəmiyyət daha da artırır.

Ölkəmiz Azərbaycanda ekoloji turizm üçün çox böyük və zəngin potensial ehtiyatları mövcuddur. Turizm şirkətləri və müəssisələri ölkə ərazisindəki milli parklara və qoruqlara səyahətlər formalaşdırırlar. Amma indiki zamanda bu sahənin genişlənməyindən danışmaq mümkün deyil. Turizm müəssisələri ekoloji məsələlərini və problemləri necə həll edir, onların həllində və aradan qaldırılmasında müəssisə rəhbərliyi və ölkəmiz hansı işlər görmək üçün əl atırlar.

Respublika Turizm və Ekskursiyalar Şurasının sədr müavini Sabir Rəhimovun bildirdiyinə görə, son zamanlarda bu mözvuda bəzi qanunvericilik planları da daxil olmaqla, qeyri-neft sahəsində ətraf mühitin qorunması və mühafizə edilməsi yeni səviyyəyə qədər yüksəlmişdir.

Ölkəmizin bəzi mütəxəssisləri deyir ki, ekoloji turizm sahəsinin metodikası ilə əlaqəli olaraq, respublika daxilindəki bütün xidmət sahələri turizm xidmətləri göstərərkən, yeyinti məmulatları və lazımi avadalıqların alınmasından başlayaraq, gündəlik problemlərin həllinə qədər, öz fəaliyyət dairəsinə ekologiya problemlərini də daxil etməlidirlər. Beynəlxalq səviyyədə ekoloji problemlərinin arxa-arxaya həll edilə bilməsi  ekoloji menecment sistemi və insanlardan asılıdır. Mütəxəssislər bildirir ki, bu gün ölkəmizdə turizm sektoru müəssisələri və təşkilatları tərəfindən ekoloji idarəetmə üsullarının hazırlanmasında Avropa qitəsinin ölkələri və başqa dünya ölkələri təcrübələri, praktikaları və standartları qeydə alınmalıdır.

Həmçinin dünya üzrə ekoturizmi araşdıran alimlərdən biri, dünyada yerləşən və müstəqilliklərini tanıdan ölkələrinin praktikalarına diqqət yetirmək lazımdır. Amerika birləşmiş ştatlarında yerləşən olan Böyük Kanyon milli parkı insanların həddindən artıq səyahət etməsi səbəbindən çox çirklənib. Afrikanın şərqindəki bir çox əyləncə parkları dörd təkərli maşınlarda əylənən insanlar tərəfindən toz təpələrinə oxşar bir təpələrə formalaşıb. İnsanların təmizlik normalara əməl edilməməsi və zibillik Tailanddakı çimərlikləri və okean sahillərinə həddindən çox ciddi ziyan vurub. Kamçatka yarımadasında çox nadir və qeyri-adi termal mənbələr diqqətsiz insanların gəlməsi səbəbindən istilik və soyuqluq balansının dəyişməsi, bəzilərinin isə fontan vurmasının sönməsi ilə

üzləşib. Bütün deyilənlərə əsaslanaraq qeyd etmək lazımdır ki, ölkəmizdə turizmin inkişafında kortəbiiliyə yol vermək çox ciddi ekoloji fəsadlar törədə bilər. Ona görə də, turizm marşrutları işlənib hazırlanarkən ekoloji təhlükəsizlik məsələsi nəzərdədir.

**Qanunlara əməl etmək lazımdır:** Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji müxtəlifliyin qorunması və xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı departamentinin direktor müavini Hikmət Əlizadənin sözlərinə görə, ölkəmizdə təbiətin qorunması və təbiətə dəyən negativ və mənfi təsirlərin azaldılması və zamanla tam olaraq aradan qaldırılması üçün bəzi qanunvericilik tədbirləri və bir sıra qadağalar var. Respublikamızda daimi yaşayan vətəndaşların əksəriyyəti elə düşünürlər ki, təbiət qoynunda istirahət edəndə hər şey eləmək olar. Dağda tonqal qalamağı, ağacların və endemik bitki növlərinin budaqlarını sındırıb onlardan tonqal qalamaq üçün istifadə edilməsi insanlar, yəni yerli xalq və xarici ölkələrdən gələn insanlar, ümumiyyətlə isə bütün qonaqlar bu hərəkətləri adi bir hərəkət hesab edərək bu fikri də öz insaları arasında yaradırlar.

Nazirlik rəsmisi qeyd edir ki, qanunlarda da olduğu kimi, xüsusilə qorunan qoruqlar və milli parklar, təbiət və meşə əraziləri və müəssisələri haqqında qanunda və bir sıra fərqli qanunvericilik aktlarında bəzi qadağalar və istisnalar vardır. Məs, milli park ərazisinə turistlərin girməsi qadağandır. Qoruqların ərazisinə isə insanlar ancaq xüsusi ayrılmış marşrutlar xətti üzrə turist kimi gələn insanlar üçün nəzərdə tutulmuş yerlərə girə bilərlər. Meşəlik və dağlıq ərazilərə turistlərin girməsinə bəzi yerlər istisna olmaqla icazə var, lakin tonqal qalamağa bitki örtüyün dağıtmağa icazə heç bir halda yoxdur. Bunların hamısı respublikamızın nəzdində lazım olan bütün qanunvericilikdə nəzərdə tutulub. Sadəcə isə, başda özümüz olmaqla gələn turistlərində bu qanunlara əməl etməsi lazım və vacib bir məsələdir.

Dünyada yerləşən əksər ölkələrdə turizm insanların sağlam və firavan yaşamasında, boş vaxtlarının daha səmərəli istifadə edə bilməsində, iqtisadiyyatda çox önəmli bir yer tutur, şəhər mərkəzlərindən kənar yerləşən regionların sosial

inkişafına sürət verir, büdcəyə əlavə pulların cəlb edilməsinə mümkün və əlverişli imkan yaradır. İndiki dövrdə dünya milli məhsulunun, dünyadakı ölkələrin qoyduğu investisiyalarının, iş yerlərinin və dünya istehlak və istehsal xərclərinin 12%-i turizmin payına düşür. Turizmin inkişafı nəqliyyat, kənd təsərrüfatı, xalq istehlakı malları istehsalı kimi sahələrin də inkişafına səbəb olur. İyirminci əsrin 90-ci illərindən etibarən isə turizmin yeni növü olan ekoturizm prioritet istiqamətə çevrildi. Artıq ekoturizm turizmin yeni sektoru kimi formalaşmağa başladı. Bu gün ekoturizmin inkişaf tempi bütün turizm industriyasımıı inkişaf tempindən 3-4 dəfə çoxdur. (http://estafet.az/az/news/id-1249 , 2017)

Turizmin inkişafı sahəsində həyata keçirilən kompleks tədbirlər çərçivəsində qarşımıza qoyulan ən əsas məqsədlər və gələcək planlar sırasında ekoloji turizm ehtiyatlarının öyrənilməsi və onların daha da əhatələndirilməsi, insanların istirahət edə bilməsi, onların ehtiyaclarının qarşılanması üçün lazımi olan əməliyyatların müasir standartlara uyğunlaşdırılması kimi amillər dayanır.

Azərbaycanda aparılan lazımi islahatlar ölkə iqtisadiyyatımızın hərtərəfli inkişafına, xalqın rahat yaşama halının qaldırılmasına, sosial tələbatların geniş ödənilməsinə zəngin lazımi şərait hazırlanmışdır. Dunun nəticəsidir ki, respublikamızın siyafi və iqtisadi qüdrəti getdikcə yüksəlir. Azərbaycanda son doqquz il müddətində neft sahəsi ilə bərabər, qeyri-neft sahəsinin də davamlı inkişafi böyük perspektiflərə yol açır. Əsrarəngiz və özünəməxsus təbiətə, zəngin mədəni irsə malik olan Azərbaycan çox qısa zamanda dünyanın ən cəlbedici turizm-rekreasiya ölkəsinə çevrilə bilər. Çeşidli bioloji müxtəliflik və landşaft müxtəlifliyi, unikallıq, urbanizasiyanın və kənd təsərrüfatının hələ təsir etmədiyi toxunulmamış landşaftlara malik Azərbaycan təbiəti ekoturizmin inkişafı üçün ideal şərtlərə malikdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatlarına əsasən bu gün Azərbaycanda ümumi sahəsi üç yüz on min beş yüz otuz dörd hektar olan səkkiz milli park, ümumi sahəsi 218335 hektar olan on bir dövlət təbiət qoruğu, ümumi sahəsi üç yüz altış bir min yüz on yeddi hektar olan iyirmi dörd dövlət təbiət yasaqlığı üç minədək dünya, dövlət və yerli əhəmiyyətli təbiət abidəsi

vardır. Qoruq ərazilərinin ümumi sahəsi 890026 hektar yəni on tam onda üç faiz təşkil edir. Bütün bu sadalananlar Azərbaycan təbiətinin turizm-rekreasiya potensialının sistemli təsnifatının yaradılmasını zəruri edir.(Məmmədov Q., Yusifov E., 2012)

Tədqiqat dövrü ərzində Azərbaycanın inzibati rayonlarına ekspedisiyalar edilmiş, bu rayonların ekoturizm baxımından maraq kəsb edə biləcək bioloji, geoloji, landşaft kompleksləri tədqiq edilmiş, ərazinin bioloji müxtəlifliyinin monitorinqi aparılmış, əldə edilmiş məlumatlar ekoloji və ekoturizm mövqeyindən sistemləşdirilmişdir. Məmulatlar iqtisadi-coğrafı rayonlar əsasında, onların fiziki xəritələri də olmaqla verilmişdir. Təbii sərvətlər əsasən relyef, onların geoloji quruluşu, səy suları, iqlim, topraq örtüyü, geoloji qarışıqlıq, tarixi-eınoqrafık və s. mövzular üzrə qruplaşdırılmışdır. Ətraf mühüt yerləri gioloji və beoloji təsnifat kodları əsasında verilmişdir. Bir sıra lazimi ətraf mühit abidələri, nadir olan nəsli kəsilməkdə olan flora və fauna növləri haqqındakı məmulatlar, onların qeyri-adi şəkilləri ilk dəfə olaraq təqdimat edilir. Kitablarda və ölkəmizin qarışıq mədəni irsi, tarixi abidələri, etnoqrafik məmulatları də öz əksini tapmışdır. Verilmiş məlumatlar həddindən artıq çox maraqlı illüstrativ maddələr ilə bərabər edilərək ən yeni və ciddi yerlərə uyğun olaraq əsaslanır.

Bu məlumatlar turizm mütəxəssislərinə yeni turizm marşrutlarının açılmasında, aqroturizm. ekoturizm. arxeoloji turizm, dini turizm, quşları izləmək və s. Azərbaycan üçün keyfiyyətcə yeni turizm növlərinin təşkilində, turizm industriyasmın inkişaf etdirilməsində çox vacibdir. (Məmmədov Q., Yusifov E., 2012)

Hesab edirəm ki, informasiyaların inzibati vahidlər və infrastruktur əsasında verilməsi bu sahədəki işlərin effektivliyinə müsbət təsir edəcəkdir. Hazırlanmış məlumat bazası həm də ekoloji və maarifləndirici əhəmiyyətə malikdir. Əsər yerli icmaların və bələdiyyələrin öz ərazilərində yerləşən təbiət kompleksləri haqqındakı məlumatlarını zənginləşdirəcək, onlara elmi-praktiki biliklər verəcək, yaxın gələcəkdə inzibati rayonların regional qırmızı kitablarının hazırlanmasında dəyərli mənbə rolunu oynayacaqdır.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Araşdırmalar və təhlil göstərir ki, Azərbaycanda turizm müəssisələrinin və təşkilatlarının sayı çoxalsa da, onların təklif edə biləcəkləri turizm məhsullarının müxtəlifliyi dünya standartlarından daha az və çox arxada qalmaqdadır. Ölkəmizdə turizm sektoru dinamik bir sektor olmaqla bərabər, ölkə iqtisadiyyatına verdiyi çox önəmli imkanlarla yanaşı, iqtisadiyyatın fərqli-fərqli sahələrində də mühim funksiyalarını həyata keçirməkdədir. Respublikamızın turizm sənayesi lazımi təbii, mədəni və tarixi resurs və mənbələrə malik olmasına və bununla bərabər, təhsil, səhiyyə, mədəniyyət və digər sosial sektorlarda mərkəz və regionda rəqabət üstünlüyünün olub-olmamasına baxmayaraq, qazanılan xarici ölkələrin turizm gəliri ilə nisbətdə yetərli səviyyədə deyil və hələ də dünya turizm bazarında öz potensialını tam olaraq reallaşdıra bilməmişdir. Turizm sənayesində istifadə edilən tədqiqatlar, araşdırmalar və mövcud olan materialların araşdırması belə bir nəticə çıxarmağa imkan verir ki, turizm sənayesinin mühim dərəcədə olmaqla çox gizli və bilinməyən imkanlarından istifadə etməklə, turizmin rəqabət qabiliyyətliliyinin daha da inkişaf etdirilməsi və ixrac qazanclarının yüksəldilməsi mümkün ola bilər. Amma bunun təyin edə bilmək üçün bu sektorda dövlət yoxlanılmasından sonra tənzimlənməsi, bazar münasibətlərinin daha da mükəmməl bir şəkildə inkişafı, həmçinin yenidən qurma və dünya ölkələrinin bazarına çıxa bilən turizm məhsullarının keyfiyyətinin daha da qaldırılması şərtlərinin həyata keçirilməsi çox vacib bir məsələdir. Turizmi sektorunu yüksək inkişafını təmin etmək üçün araşdırmalardan da bəlli olduğu qədəri ilə bəzi tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur. Bunlara

- İnfrastrukturun inkişaf etdirilməsi;
- Ölkəmiz üçün yenidən yeni bir imicinin formalaşdırılması məqsədilə ilk olaraq milli səviyyədə marketinq siyasətinin, bununla bərabər, beynəlxalq arenada tur-məhsul portfeli yaratmaq və başqa konkret marketinq planlarının reallaşdırılması;

- Təbii, tarixi-mədəniyyət abidələrimizə, təbiətimizə, irsimizə qarşı laqeyd münasibətin ortadan qaldırılması məqsədilə bu barədə dövlət və ictimai nəzarətin və diqqətin artırılması;
- Ölkəmizə gəlmək istiyən qonaqlar üçün viza alma müddətinin minimuma endirilməsi və müraciət edən turistlər üçün vizanın rahat alınması üçün bəzi seçim imkanlarının yaradılması;
- Bir turistin sərhədi rahat keçmə müddətinin və gömrük prosedurаlarının və əməliyyatlarının daha da sadələşdirilməsi;
- Turizm müəssisələrinin fəaliyyət göstərə bilmələrinə və bununla bağlı xidmətlərə məcburi lisenziyalaşdırmanın aid edilməməsi;
- Xarici qonaqların ölkəmizə gəldikləri müddətdə ölkəmizin giriş və çıxış yerlərində, bununla bərabər onların hərəkət istiqamətində ümumi servis xidmətlərinin qurulması üçün lazımi tədbirlərin görülməsi;
- Turizm səyahətlərinin təşkilində digər nəqliyyat vasitələrindən istifadə imkanlarının artırılması məqsədilə regionlara xüsusi marşrutların təşkil edilməsi üçün regional səviyyədə mövcud olan infrastrukturun potensialından daha səmərəli istifadə edilməsi;
- Turizm marşrutları ilə yaranmış olan istirahət-əyləncə dayanacaqlarında xidmətlərinin keyfiyyət baxımından daha da yüksəldilməsi kimi tədbirləri misal göstərmək olar. Yalnız bu kimi problemlerin həll olunmasından sonra ölkəmizi sosial-iqtisadi baxımından daha da yüksəklərdə görmək mümkün ola bilər.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasında 2010 – 2014 – cü illərdə turizmin inkişafına dair dövlət proqramı, (2014)
2. Abadov M.K. (2014) “Azərbaycan turizmi və onun inkişaf problemləri”, Bakı, 248 səh.
3. Abdullayev Ə.H. (2006) “Azərbaycanda turizmin inkişafının iqtisadi-coğrafi problemləri”, Bakı; 173 səh.
4. Abdullayeva F. (2010) “Ekoloji Turizm-sağlam istirahət və təbiəti mühafizə”, Bakı, S.9.
5. Abdullayeva F. (2010) “Ekoloji turizmin inkişaf perspektivlərinin araşdırılması ”, Bakı, S.8.
6. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Bakı, (2017)
7. Bilalov B. (2006) “Turizm fəaliyyətinin tənzimlənməsi”, Bakı, 280 səh.
8. Əlirzayev Ə.Q., Aslanova S.İ. (2006) “Turizmin inkişafının sosial-iqtisadi problemləri”, Bakı, 164 səh.
9. Hüseynov İ.H., Əfəndiyeva N.T. (2007) “Turizmin Əsasları”, Bakı, 166 səh.
10. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H., (2002) “Beynəlxalq turizmin coğrafiyası”, Bakı, 504 səh.
11. Məmmədov Q., Xəlilov M. (2006) “Ekologiya və Ətraf Mühitin Mühafizəsi”, Bakı, 608 səh.
12. Məmmədov Q., Yusifov E., Xəlilov M., Kərimov V. (2012) “Azərbaycan Ekoturizm Potensialı ”, Bakı, 420 səh.
13. Musazadə Günel (2015) “Kənd turizminin inkişaf problemləri” magistr disertasiyası, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 75 səh.
14. Qəhrəman Y. (2011) "Turizm işinin təşkili", Bakı. 265 səh.
15. Rəhimov S. (2004) “Turizm-ekskursiya turizm işinin təşkili”, Bakı, 312 səh.
16. Soltanova H.B. (2015) “Azərbaycan Respublikasında turizm və onun inkişafı”, Bakı, 475 səh.
17. Şahverdiyev C. (2011) “Əhalinin ekoloji maariflənməsində Milli Parklarımızın əhəmiyyəti”, Bakı, S.14.


## Xarici dildə


1. Haberal.H (2015) “Turizmde Alternatif Ekolojik Turizm-Doğa Turizmi-Kırsal Turizm-Yayla Turizmi”, Istanbul, 623 səh.
2. Kozak N., Kozak M.A., Kozak M., (2014) “Genel turizm”, Ankara, 176 səh.
3. Nazmi Kozak, (2006) “Turizm Pazarlaması” Ankara, 289 səh.
4. Nihat D. (2011) “Turizm ve Çevre ”, Ankara, 457 səh.

## İnternet resursu

1. http://estafet.az/az/news/id-1249
2. https://en.wikipedia.org/wiki/World_Tourism_rankings
3. https://whc.unesco.org/en/list/

# CƏDVƏLLƏRİN SİYAHISI

**Cədvəl 1.** Azərbaycan Respublikasına gələn və Respublikamızdan xarici ölkələrə gedən turistlərin sayı(2008-2017).........................................................24

**Cədvəl 2.** Qitələr üzrə yerləşən ən məşhur milli parklar.....................................26

**Cədvəl 3.** 2016-17-ci illər üzrə Amerika qitəsinə gələn turist sayısı..................31

**Cədvəl 4.** 2016-17-ci illər üzrə Avropa ölkələrinə gələn turist sayısı.................37

**Cədvəl 5.** Turizm üçün xarakterik sahələr üzrə göstəricilər................................50

**Cədvəl** 6. Qəbul edilmiş və göndərilmiş turistlərin iqtisadi rayonlar üzrə sayı..53